KHAZAR REVIEW

№ 374 İyun 2018

XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org

KHAZAR UNIVERSITY

OPERATORS, FUNCTIONS, AND SYSTEMS OF MATHEMATICAL PHYSICS CONFERENCE


Hamlet Isaxanli's 70th anniversary















İÇİNDƏKİLƏR

Azərbaycan Xalq Cümhuriyyəti - 100 4
Xəzər Universitetində professor Hamlet İsaxanlının yubileyinə həsr olunmuş Beynəlxalq Riyaziyyat Konfransı keçirildi 8
Moskva Dövlət Universitetindən professor Hamlet İsaxanlıya təbrik məktubu 16
Rusiya Federasiyasının Başqırdıstan Respublikasından professor Hamlet İsaxanlıya təbrik məktubu 18
Xəzər Universitetində "Hamlet İsaxanlının poeziyasına psixoloji səyahət" adlı tədbir keçirildi 20
Universitet xəbərləri 24
"Azərbaycan sevgi poeziyası" kitabının ilk 2 cildi İranda nəşr olundu 29
Xəzər Universitetinin əməkdaşı ABŞ-da işgüzar səfərdə 30
Rejissor Nazim Rza ilə görüş 35
Fulbrayt təqaüdçüləri üçün qarşılama mərasimi 36
Xəzər Universitetinin məzunu İlahiyyat İnstitutuna rektor təyin olunub 45
Niyal hazırlıq kurslarının müəllim və şagirdləri Xəzər Universitetində 52
Növbəti karyera sərgisi 58
"Xəzər"in əməkdaşları ölkə və xarici simpoziumlarda 60
"Xəzər"in əməkdaşlarının məqalələri ölkədə və xaricdə çap olunub 64
İvan Bunin. San - Fransiskolu cənab (*hekayə*) 68

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Əjdər Ağayev
Afiə Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Eyvaz Mehdiyev

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

It has been published since January 1998

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Ajdar Aghayev
Afia Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eyvaz Mehdiyev

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000





TƏLƏBƏLƏRİN AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNƏ AİD TƏQDİMATLARI

STUDENTS DELIVERED PRESENTATIONS ON AZERBAIJAN DEMOCRATIC REPUBLIC

Mayın 14-də Təhsil fakültəsinin tələbələri ilə Tarix və arxeologiya departamentinin müəllimi t.ü.f.d. Səbuhi Əhmədov tərəfindən aparılan "Azərbaycan tarixi" dərsində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının Azərbaycan xalqının taleyi üçün əhəmiyyəti, onun Azərbaycan tarixində oynadığı rol, nailiyyətləri və digər məqamlar haqqında ətraflı məlumat verildi.

Qrupun tələbələri Azərbaycan Xalq Cümhuriyyəti tarixinin ən vacib səhifələri ilə bağlı təqdimatlar hazırlamışdılar. Fatimə Abbaszadə "Azərbaycan Cümhuriyyəti dövründə Azərbaycan dili məsələsi", Şəhla Quliyeva "Məhəmməd Əmin Rəsulzadə", Fərqanə Ələsgərli "İstiqlal Bəyannaməsi və AXC-nin yaranması", Nərgiz Nəsirova "AXC dövründə milli-mədəni quruculuq", Zöhrə Xəlilova "Fətəli xan Xoyski", Qumru İbrahimli "AXC-nin süqutu və aprel istilası", İlahə Həsənzadə "AXC-nin 3-cü hökumət kabineti", Xanım Dadaşova "Məhəmməd Əmin Rəsulzadə", Zəhra Ələsgərova "Əlimərdan bəy Topçubaşov" adlı mövzularla çıxış etdilər. Çıxışların hər biri müvafiq slaydların nümayişi ilə müşayiət olunurdu.

Həmçinin, tələbələrdən Nigar Şükürova "Qazax müəllimlər seminariyası", Nobatxanım Rüstəmova "AXC-nin parlamenti", Züleyxa Aslanova "Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu" mövzularında referatlar hazırlamışdılar.

On May 14, at the lesson of "History of Azerbaijan", Sabuhi Ahmadov, PhD in History and instructor of the Department of History and Archeology, enlightened the students of the Faculty of Education about Azerbaijan Democratic Republic, its role in the history of Azerbaijan, achievements as well as mistakes of Democratic Republic. Students had prepared presentations on the most important issues with regard to Democratic Republic. The followings are the presentations delivered by the students: Fatima Abbaszade "The issue of Azerbaijani language during the period of the Azerbaijan Democratic Republic"; Shahla Guliyeva "Mahammad Amin Rasulzadeh"; Fargana Alasgarli "Declaration of Independence and the establishment of Azerbaijan Democratic Republic"; Nargiz Nasirova "National and cultural development in the Azerbaijan Democratic Republic"; Zohra Khalilova "Fatali Khan Khoyski"; Gumru Ibrahimli "The collapse of Azerbaijan Democratic Republic and the April invasion"; Ilaha Hasanzadeh "The third cabinet of government of the Azerbaijan Democratic Republic"; Khanim Dadashova "Mahammad Amin Rasulzadeh"; and Zahra Alasgarova "Alimardan bey Topchubashov". Each presentation was made with ppt slides. Moreover, the following abstracts had been prepared by the students: Nigar Shukurova "Gazakh Teachers Seminary"; Nobatkhanim Rustamova "The Parliament of the Azerbaijan Democratic Republic"; and Zuleykha Aslanova "Development of the army in the Azerbaijan Democratic Republic".



MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN MƏKTUBLARININ TƏQDİMAT MƏRASİMİNDƏ

AT THE PRESENTATION CEREMONY OF LETTERS BY MAHAMMAD AMIN RASULZADEH

Mayın 16-da Milli Azərbaycan Tarixi Muzeyində Cümhuriyyətin 100 illiyi münasibətilə keçirilən tədbir çərçivəsində Cümhuriyyətin qurucularından biri, görkəmli dövlət xadimi Məhəmməd Əmin Rəsulzadənin mühacirət dövründə azərbaycanlı mühacir Süleyman Təkinərə yazdığı və muzeyə hədiyyə olunmuş 29 məktubun təqdimatı keçirildi. Təqdimatda Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova və tarix müəllimliyi ixtisasının tələbələri iştirak edirdilər.

Muzeyin elmi katibi, t.ü.f.d. Fərhad Cabbarov tədbiri açaraq qeyd etdi ki, məktublar 1950-1955-ci illər dövrünü əhatə edir. Məktublar muzeyə Süleyman Təkinərin Bakıda yaşayan varisləri tərəfindən hədiyyə olunmuşdur. Məktublarda M. Ə. Rəsulzadə Azərbaycan mühacirətinin qarşısında duran vəzifələr haqqında fikirlərini S.Təkinər ilə bölüşür.

Tədbirdə "Əzablı yollarla" filmindən S.Təkinərin M. Ə. Rəsulzadə ilə görüşündən fraqmentlər göstərildi.

Muzeyin direktoru, akademik Nailə Vəlixanlı çıxışında Cümhuriyyət irsinin, xüsusilə, M. Ə. Rəsulzadə mirasının qorunmasının əhəmiyyətini vurğuladı. Sonra məktubları muzeyə hədiyyə edən Rauf Həsənov və S.Təkinərin Almaniyada yaşayan qızı Leyla Deqner çıxış etdilər.

On May 16, a presentation of 29 letters produced by Mahammad Amin Rasulzadeh during his exile, one of the founders of the Azerbaijan Democratic Republic and a prominent state figure, which were sent to Suleyman Takinar, an Azerbaijani exiled intellectual, was held. The letters were donated to the National Museum of History of Azerbaijan where the presentation took place. Roza Arazova, Head of the Department of History and Archeology, and students majoring in History participated in the presentation.

In his opening speech, Farhad Jabbarov, PhD in History and Secretary of the Museum, mentioned that the letters belong to the period of 1950-1955. The letters have been donated to the museum by Suleyman Tekinar's successors living in Baku. In his letters, Mahammad Amin Rasulzadeh shared his ideas with Suleyman Tekinar regarding missions of Azerbaijani exiled intellectuals.

In the ceremony, a clip from the movie "Through painful ways", which screened S.Takinar's meeting with M.Razulzade, was demonstrated.

Naila Valikhanli, Director of the Museum, delivered a speech and stressed the importance of protecting the heritage of Azerbaijan Democratic Republic, especially the one by M.Razulzadeh. Then Rauf Hasanov, who has donated the letters to the museum, and Leyla Denger, Suleyman Tekinar's daughter living in Germany, delivered speeches. Roza Arazova and students had a memory photo taken.





MƏHƏMMƏD ƏMİN RƏSULZADƏNİN EVİNƏ ZİYARƏT TƏŞKİL OLUNDU

VISIT ORGANIZED TO MAHAMMAD AMIN RASULZADEH'S HOME

Mayın 18-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin təşkilatçılığı ilə tarix ixtisasının tələbələri Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar Novxanıda Məhəmməd Əmin Rəsulzadənin evini ziyarət etdilər. Tədbirdə Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, departamentin assistenti Akifə Cəfərli, Təhsil fakültəsinin dekan müavinləri Zərifə Əliyeva və Aygün Verdiyeva iştirak edirdilər.

Öncə tələbələr və əməkdaşlar M.Ə.Rəsulzadənin heykəli qarşısında qərənfillər qoydular. Sonra isə M.Ə.Rəsulzadənin dünyaya göz açdığı evini (indi bağçadır) ziyarət etdilər.

Geri qayıdarkən tələbələr arasında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar kiçik bir tarixi yarış keçirildi.

On May 18, on an organizational support of the Department of History and Archeology of Khazar University, the students majoring in History visited Mahammad Amin Rasulzadeh's home in Novkhani on the occasion of the 100th anniversary of the Azerbaijan Democratic Republic. Roza Arazova, Head of the Department of History and Archeology, Akifa Jafarli, the department assistant, Zarifa Aliyeva and Aygun Verdiyeva, Vice-deans of the School of Education, also joined the visit. First, university associates and students laid carnations in front of M.A. Rasulzadeh's monument. Then they paid a visit to the home (currently used as a kindergarten) where M.A. Rasulzadeh was born.

On the way back, Roza Arazova involved students in a small competition on the 100th anniversary of the Azerbaijan Democratic Republic.









KHAZAR UNIVERSITY

OPERATORS, FUNCTIONS, AND SYSTEMS OF MATHEMATICAL PHYSICS CONFERENCE

Hamlet Isaxanli's 70th anniversary
















XƏZƏR UNİVERSİTETİNDƏ PROFESSOR HAMLET İSAXANLININ YUBİLEYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ RİYAZİYYAT KONFRANSI KEÇİRİLDİ

INTERNATIONAL MATHEMATICS CONFERENCE DEDICATED TO PROFESSOR HAMLET ISAKHANLI'S ANNIVERSARY HELD AT KHAZAR UNIVERSITY

Mayın 21-24-də Xəzər Universitetinin Riyaziyyat departamentinin təşkilatçılığı ilə universitetin Mərmər salonunda universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının 70 illik yubileyinə həsr olunmuş "Riyazi fizikanın operatorları, funksiyaları və sistemləri" mövzusunda beynəlxalq konfrans keçirildi. Konfransın məqsədi riyazi fizika sahəsində yeni nəticələri və tədqiqat istiqamətlərini müzakirə etmək idi.

Konfransda Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, Azərbaycan, Türkiyə, İran, Rusiya, Gürcüstan, Ukrayna, Qazaxıstan, Almaniya, Fransa, İspaniya, Səudiyyə Ərəbistanı Krallığı, Avstriya, Finlandiya, ABŞ, İtaliya, İngiltərə, Birləşmiş Ərəb Əmirlikləri və İsveçdən olan 80-ə yaxın görkəmli alim, aparıcı mütəxəssis və tədqiqatçılar iştirak edirdilər.

(*Ardı səh. 10-da*)

On May 21-24, on the organizational support of the Department of Mathematics of Khazar University the international conference *"Operators, Functions, and Systems of Mathematical Physics Conference"* (OFSMPC), dedicated to Professor Hamlet Isakhanli's, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, 70th anniversary, was held in "Marble" hall of Khazar University. The main aim of the conference was to discuss recent developments and progress in Mathematical Physics.

The conference was attended by administration and staff of Khazar University as well as about 80 well-known scholars, specialists and researchers from Azerbaijan, Turkey, Iran, Russia, Georgia, Ukraine, Kazakhstan, Germany, France, Spain, Kingdom of Saudi Arabia, Austria, Finland, USA, Italy, England, the United Arab Emirates.

(*To be continued on page 11*)



Konfrans bu mövzuları əhatə edirdi: Ümumi operatorlar və spektral nəzəriyyə; Riyazi fizikanın xüsusi törəməli tənliklərinin analizi; Diferensial operatorların spektral nəzəriyyəsi; Riyazi fizikanın məsələlərində bazislər, freymlər və aproksimantlar; Klassik və kvant inteqrallanan modellər; Sim və kvant sahə nəzəriyyəsi; Xüsusi funksiyalar; Səpilmə nəzəriyyəsi; Tərs məsələlər.

Konfransı giriş sözü ilə Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs açaraq, iştirakçıları salamladı, tədbirin beynəlxalq əhəmiyyətindən danışdı və konfrans iştirakçıları adından professor Hamlet İsaxanlının 70 illik yubileyi münasibətilə təbrik etdi.


Professor Hamlet İsaxanlı geniş çıxışında riyazi fizika sahəsində dünyada əldə olunan yeni nəticələrin və tədqiqat istiqamətlərinin müzakirə edilməsini, sahənin aparıcı mütəxəssislərinin Bakıda, Xəzər Universitetində bir araya gəlməsini əlamətdar hadisə adlandırdı və buna görə iştirakçılara təşəkkürünü bildirdi, konfransa uğurlu iş arzuladı.

(*Ardı səh. 12-də*)









The conference covered the following subjects: General operators and spectral theory; Analysis of Partial Differential Equations of Mathematical Physics; Bases, Frames and Approximants in problems of Mathematical Physics; Spectral theory of differential operators; Classical and quantum integrable models; String and quantum field theory; Special functions; Scattering Theory; Inverse problems.

Dr. Hassan Niknafs, the rector of Khazar University, welcomed the participants, spoke about the international significance of the event and congratulated Professor Hamlet Isakhanli on the occasion of the 70th jubilee on behalf of the conference participants.

Professor Hamlet Isakhanli, in his speech, called the discussion of new achievements and research directions in the field of Mathematical Physics and bringing together leading experts in the field in Baku, Khazar University as a remarkable event, thanked the participants and wished them success in the conference.

(To be continued on page 13)









Sonra konfransın proqramına uyğun olaraq məruzələrin dinlənilməsinə başlanıldı. Konfrans 4 gün ərzində 4 bölmədə işini davam etdirdi. 80-dək məruzə dinlənildi, geniş müzakirələr aparıldı.

Mayın 22-də konfransın professor Hamlet İsaxanlıya həsr olunmuş xüsusi sessiyası keçirildi. Sessiyada professor Hamlet İsaxanlı "Operatorların çoxparametrli spektral nəzəriyyəsi haqqında", Türkiyənin Koç Universitetinin (İstanbul) professoru Varqa Kələntərov "Professor Hamlet İsaxanlının operatorlar nəzəriyyəsi sahəsindəki işlərinə dair", Xəzər Universiteti Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova "Professor Hamlet İsaxanlının həyat yolu", Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyev "Professor Hamlet İsaxanlının humanitar və sosial elmlər sahəsindəki elmi işləri", filologiya elmləri doktoru, professor Asif Hacılı "Professor Hamlet İsaxanlı – şair, yazıçı və tərcüməçi" mövzularında məruzələrlə çıxış etdilər.

(Ardı səh. 14-də)







Then the experts started delivering their reports based on the conference agenda.
The conference continued its work in 4 sections within 4 days. About 80 reports were delivered and extensive discussions were held.

On May 22, a special session was held dedicated to Hamlet Isakhanli's anniversary. The following reports were delivered: "On multi-parameter spectral theory of operators" by Hamlet Isakhanli, "About the works on Hamlet Isakhanli's operators theory" by Varga Kalantarov, Professor of Koç University of Turkey (Istanbul), "The life path of Hamlet Isakhanli" by Lyudmila Sotova, Director of the Quality Assurance Center, "Prof. Hamlet Isakhanli's scientific works in Humanities and Social Sciences" by Dr. Eldar Shahgaldiyev, Head of the Division for Graduate Students and Research, and "Prof. Hamlet Isakhanli - poet, writer and translator" by Prof. Asif Hajili.

(To be continued on page 14)









Mayın 24-də universitetin Mərmər salonunda konfransın bağlanış mərasimi keçirildi. Professor Hamlet İsaxanlı çıxış edərək, konfransın işini yekunlaşdırdı. Qeyd etdi ki, konfrans görkəmli alim və mütəxəssislərin fəal iştirakı ilə keçərək səmərəli olmuş, onlar bir-birinin yeni elmi tədqiqatları və nəticələri ilə tanış olmuşlar. H. İsaxanlı, həmçinin, belə konfransların imkan daxilində daha müntəmadi keçirilməsi zəruriliyini də vurğuladı.

Konfrans iştirakçıları adından Rusiyanın Belqorod Dövlət Universitetinin professoru Aleksandr Soldatov çıxış edərək, konfransın yüksək səviyyədə təşkili və keçirilməsinə görə Xəzər Universitetinin rəhbərliyinə, şəxsən professor Hamlet İsaxanlıya və bütün təşkilatçılara dərin təşəkkürünü bildirdi.

Konfrans iştirakçıları üçün Bakı şəhərinə ekskursiya, böyük ziyafət və Xəzər Universitetinin Kamera orkestrinin konserti təşkil olunmuşdu.

On May 24, a closing ceremony of the conference was held in "Marble" hall. Prof. Hamlet Isakhanli delivered a closing speech. He mentioned that prominent scholars and experts took an active part in the conference and got familiar with new research findings. He also mentioned that there is a need to hold such conferences as frequently as possible.

Prof. Aleksander Soldatov, Belgorod State University of Russia, delivered a speech and expressed special gratitude for conducting a high quality conference to Prof. Hamlet Isakhanli, all the organizers and the conference participants.

Baku tour, a reception and a concert of Chamber orchestra of Khazar University were organized for the conference participants.
















МОСКОВСКИЙ
ГОСУДАРСТВЕННЫЙ
УНИВЕРСИТЕТ
имени М.В.ЛОМОНОСОВА

ДОРОГОЙ ГАМЛЕТ ИСАХАНЛЫ!

Сердечно поздравляем тебя с 70-летием со дня рождения.

Нам, как руководителям научной школы по теории общих и дифференциальных операторов в Московском университете имени М.В.Ломоносова, хорошо известна твоя научная деятельность в спектральной теории операторов. Твои исследования по теории краевых задач и, в особенности, по многопараметрической спектральной теории получили заслуженное признание специалистов. Мы хорошо помним годы твоего обучения в аспирантуре и докторантуре МГУ имени М.В.Ломоносова, годы, когда мы вместе участвовали в научных семинарах, делились научными достижениями, были друзьями в коллективе, которым руководил наш общий учитель, профессор А.Г.Костюченко. Общей победой и радостью стали сначала твоя защита кандидатской диссертации в МГУ, а потом защита докторской диссертации в крупнейшем математическом центре СССР - институте имени В. А. Стеклова.

В дальнейшем твой яркий талант проявился не только в области математики. В Азербайджане ты проявил себя как яркий общественный деятель, хорошо известны твои работы по социальным и гуманитарным наукам, по истории науки, литературы, культуры и образования, твои книги по математике и общественным наукам. Ты проявил себя и в поэтическом творчестве. Мы можем это оценить, так как твои замечательные стихотворения переведены на русский язык.

Но главным делом твоей жизни стал организованный тобой в 90-е годы в независимом Азербайджане Хазар Университет, ректором которого со дня основания по сей день ты являешься. В настоящее время этот университет - один из лучших образовательных и научных центров в Азербайджане, имеющий признание на международной арене.

Желаем тебе, дорогой Гамлет, доброго здоровья, долгих лет жизни и реализации твоих планов и идей на благо науки, образования и крепнущей дружбы наших стран.

Ректор
МГУ имени М.В. Ломоносова,
академик РАН В.А.Садовничий

Профессор
МГУ имени М.В. Ломоносова А.А. Шкаликов

A CONGRATULATORY LETTER FROM MOSCOW STATE UNIVERSITY TO PROF. HAMLET ISAKHANLI

A congratulatory letter from Moscow State University (MSU) was sent to Prof. Hamlet Isakhanli on the occasion of his 70th jubilee. In the letter, signed by V. Sadovnichiy, Rector of the University and Academician of the Russian Academy of Sciences, and A. Shkalikov, the professor of the university, there are notes about memories on Prof. Hamlet Isakhanli's postgraduate and doctoral studies at MSU. The letter also involves a high appreciation for Prof. Hamlet Isakhanli's achievements in Mathematics, Humanities, and Poetry.



MEKSİKA SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ MÜHAZİRƏ OXUDU

MEXICAN AMBASSADOR DELIVERS A LECTURE AT KHAZAR UNIVERSITY

Mayın 23-də Meksikanın Azərbaycandakı səfiri Rodrigo Labardini müqayisəli siyasət dərsində qonaq mühazirəçi kimi çıxış etdi.

Labardini hakimiyyət bölgüsü, hər bir hakimiyyət qolunun məsuliyyəti və 3 struktur (qanunverici, icraedici, məhkəmə) arasında mövcud olan qarşılıqlı "nəzarət və balans" mexanizmi haqqında danışdı. Eyni zamanda, səfir tələbələrlə birlikdə müxtəlif idarəçilik modellərinin və ölkələrin fərqli idarəçilik sistemlərinin müqayisəli təhlilini apardı.

Mühazirə sual-cavab sessiyası ilə başa çatdı.

On May 23, Mr Rodrigo Labardi, Mexican ambassador to Azerbaijan, delivered a lecture as a guest lecturer at the lesson of Comparative Politics.

In his lecture, Mr Rodrigo talked about distribution of power, 3 structures of power (legislative, executive, judicial) and responsibilities of each power as well as a mutual mechanism of "control and balance" among the three powers. Moreover, Mr Rodrigo talked about various administration models and gave comparative analyses of various systems of administration.

The lecture ended with a question and answer session.



ДОРОГОЙ ГАМЛЕТ АБДУЛЛА ОГЛЫ!

Математики и механики Республики Башкортостан сердечно поздравляют Вас со славным юбилеем - 70-летием! Мы знаем Вас, как очень разностороннего человека - известного математика, выдающегося поэта, автора работ по гуманитарным и социальным наукам и крупного организатора науки и образования.

Вы являетесь одним из ярких представителей замечательной московской школы по спектральной теории операторов под руководством А.Г. Костюченко и В.А. Садовничего, основателем университета Хазар в Баку, учредителем «школы Дунья», издательства и Евразийской Академии /Eurasian Academy. Математики и механики Башкортостана знают Вас как одного из создателей современной многопараметрической спектральной теории. Молодые учёные, защитившие диссертации под Вашим руководством, в настоящее время успешно работают в США, России, Израиле, Турции, Азербайджане и других странах.

Поражает воображение разнообразие Ваших научных интересов. Вы являетесь автором сотни статей, а также монографий и учебников по математике, социально-гуманитарным наукам, истории науки и образования, истории литературы, культуры и цивилизаций, теории и истории перевода, редактором ряда научных и научно-популярных журналов, сборников и монографий, учебников и словарей. Выступали с научными докладами во многих странах мира.

Вы являетесь неутомимым общественным деятелем. Вы - Сопредседатель Совета ректоров Азербайджанской Республики (с 1996 года поныне), Президент Ассоциации частных университетов Азербайджана (с 2001 года поныне); Соучредитель и член совета директоров Американского фонда «Karabakh Foundation» (www.karabakhfoundation.org), член совета попечителей Фонда Евразийского Сотрудничества (Eurasia Partnership Foundation) и т.п.

Вы становились лауреатом премий в различных областях науки, образования и литературы: Вы - Лауреат премии им. Юсифа Мамедалиева (1994)- за заслуги в науке и образовании; лауреат премии «Золотое перо» (2004)- за заслуги в поэтическом искусстве и публицистике; Лауреат премии им. Самед Вургун (2005)- за заслуги в развитии культуры и литературы Азербайджана; лауреат премии им. Джафар Джаббарлы - за заслуги в пропаганде классической и современной Азербайджанской поэзии и в составлении многотомника «Поэзия Любви Азербайджана» (2010); Лауреат национальной премии «Хазар» - за заслуги в развитии высшего образования в Азербайджане и в создании университета, соответствующего международным стандартам (2010).

Дорогой Гамлет Абдулла оглы! Обладая талантом и в науке, и в образовании, и в литературе. Вы отличаетесь завидным трудолюбием! Желаем Вам крепкого здоровья и успехов во благо и процветание Вашей прекрасной Республики!

A LETTER FROM THE REPUBLIC OF BASHKORTOSTAN OF THE RUSSIAN FEDERATION TO PROF. HAMLET ISAKHANLI

A letter from the Republic of Bashkortostan of the Russian Federation was to Prof. Hamlet Isakhanli on the occasion of his 70th jubilee. The letter was signed by 30 prominent mathematicians, mechanic scientists and specialists. In the letter, it is mentioned that specialists, for who Prof. Hamlet Isakhanli acted as a scientific supervisor for dissertations, gained achievements in Russia, the USA, Israel, Turkey and other countries. Moreover, the letter involves an appreciation for Prof. Hamlet Isakhanli's performance in science and poetry.







XƏZƏR UNİVERSİTETİNDƏ "HAMLET İSAXANLININ POEZİYASINA PSİXOLOJİ SƏYAHƏT" ADLI TƏDBİR KEÇİRİLDİ

Mayın 25-də universitetin Mərmər salonunda Humanitar və sosial elmlər fakültəsi və Psixologiya departamentinin təşkilatçılığı ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının 70 illik yubileyinə həsr olunmuş "Hamlet İsaxanlının poeziyasına psixoloji səyahət" adlı tədbir keçirildi. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, tələbələr, tanınmış elm və incəsənət xadimləri iştirak edirdilər.

Tədbiri Psixologiya departamentinin müəllimi Nilufər Əlizadə açaraq, H. İsaxanlının poetik yaradıcılığının yeni rakursdan şərhi baxımından tədbirin özünəməxsusluğunu qeyd etdi. Sonra H. İsaxanlının həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş olundu.

İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova H.İsaxanlının şeirlərini ingilis dilinə tərcümə etmək təcrübəsindən danışdı və "Yaşamağa nə var ki?" şeirindən bəhs etdi. Psixologiya departamentinin koordinatoru, universitetin Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimova, Psixologiya departamentinin müəllimləri Nilufər Əlizadə və Fərəh Adıgözəlova H. İsaxanlının şeirlərini psixoloji cəhətdən analiz etdilər, Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Dilbər Zeynalova, Fəlsəfə departamentinin müəllimi Mail Yaqub şairin şeirləri haqqında fikirlərini bildirdilər. Logos Psixoloji və Nitq İnkişaf Mərkəzinin aparıcı mütəxəssisi Elmira Mirzəyeva professor Hamlet İsaxanlını yubileyi münasibətilə təbrik etdi.

(Ardı səh. 22-də)









AN EVENT ENTITLED "PSYCHOLOGICAL JOURNEY TO HAMLET ISAKHANLI'S POETRY"HELD AT KHAZAR UNIVERSITY

On May 25, on the organizational support of the Faculty of Humanities and Social Sciences and the Department of Psychology, an event entitled "Psychological journey to Hamlet Isakhanli's poetry" was held at Khazar University which was dedicated to Prof. Hamlet Isakhanli's, the founder of Khazar University, and Chairman of its Board of Directors and Trustees, 70th anniversary. The event was attended by the administration, staff and students of the University as well as well-known scientists and art figures.

In her opening speech, Nilufar Alizadeh, an coordinator of the Department of Psychology, underlined the peculiarity of the event in terms of interpretation of Hamlet Isakhanli's poetry from a new perspective. Then a video about Hamlet Isakhanli's life and career was played.

Firangiz Nasirova, Head teacher of the Department of English Language and Literature, talked about her experience of translating Hamlet Isakhanli's poems into English. She also talked about Hamlet Isakhanli's poem entitled "*Yaşamağa nə var ki?*". Melek Kerimova, Vice-Dean of the School of Humanities and Social Sciences and Director of Psychological Service Center of Khazar University, Nilufar Alizadeh and Farah Adigozelova, instructors of the Department of Psychology, made psychological analyses of Hamlet Isakhanli's poems. Besides, Dilbar Zeynalova, an instructor of the Department of Azerbaijani Language and Literature, and Mail Yagub, an instructor of the Department of Philosophy, shared their views about Hamlet Isakhanli's poems. Leading expert of Logos Psychological Improvement Center - Elmira Mirzayeva congratulated Hamlet Isakhanli for his jubilee.

(To be continued on page 23)













Şair, Əməkdar incəsənət xadimi Baba Vəziroğlu, Xalq yazıçısı Mövlud Süleymanlı öz çıxışlarında H. İsaxanlının görkəmli riyaziyyatçı alim olması ilə yanaşı çoxşaxəli fəaliyyətindən danışdılar, şair və tərcüməçi kimi, humanitar elm sahələrinin tədqiqatçısı kimi yaradıcılığından bəhs etdilər.

Nilufər Əlizadə özünün çəkdiyi "Hamlet İsaxanlı və Nailəxanım İsayeva" portretini H. İsaxanlıya hədiyyə verdi.

Tədbir musiqi proqramı ilə müşayiət olunurdu. Universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın başçılıq etdiyi universitetin Kamera orkestrinin müşayiəti ilə Azərbaycan Dövlət Musiqili Teatrının solisti, beynəlxalq müsabiqələr laureatı Atəş Qarayev, Müslüm Maqomayev adına Dövlət Akademik Filarmoniyasının solisti, Xəzər Universitetinin müəllimi Məhsəti Çabbarova H. İsaxanlının sözlərinə Nailxanım İsayeva, Əməkdar artist Elza Seyidcahan və Dilarə Qulamovanın bəstələdikləri mahnıları ifa etdilər.

Sonda professor Hamlet İsaxanlı çıxış edərək, tədbirin təşkilatçılarına və iştirakçılara təşəkkürünü bildirdi.



In their speech, Baba Vaziroghlu, poet and Honored Art Worker, and Movlud Suleymanli, People's Writer, stressed that along with being a prominent mathematician, Hamlet Isakhanli has also built an astonishing career in Humanities as a researcher and has become a well-known poet and translator.

Nilufar Alizadeh presented her painting depicting Hamlet Isakhanli and Nailakhanim Isayeva, his wife, to Hamlet Isakhanli.

The event was accompanied by a music program. Chamber orchestra of the University, led by Zulfiyya Sadigova, Head of the Department of Music and Fine Arts, Honored Teacher and pianist, accompanied by Atesh Garayev, soloist of Azerbaijan State Musical Theater and laureate of international competitions, and Mahsati Jabbarova, an instructor of Khazar University and soloist of Azerbaijan State Philharmonic named after Muslim Magomayev, who performed pieces of music with lyrics by Hamlet Isakhanli which were composed by Nailakhanim Isayeva, Elza Seyidjahan and Dilara Gulamova.



At the end of the event, Hamlet Isakhanli delivered a speech and expressed his thanks to organizers and participants.



KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES JURNALININ YENİ SAYI NƏŞR EDİLDİ

Khazar Journal of Humanities and Social Sciences ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı") jurnalının yeni sayı (Cild 21, № 2, 2018) Xəzər Universitetinin mətbəəsində nəşr edilmişdir.

Jurnalın bu sayında aşağıdakı mövzular əhatə olunur: Gürcüstan təhsilində islahat/sinif qiymətləndirməsi üçün tövsiyələr; Esse yazılarında İngilis dili öyrənən tələbələrin müəllim rəyi və tələbə rəyi haqqında müşahidələri; 9-11 yaşlı şagirdlərin çəkdikləri şəkillərdə zorakılıq haqqında fikirləri; Azərbaycan, Türkmənistan və Özbəkistanın enerji strategiyası; Beynəlxalq qanunlarda azadlıqların bəyan edilmə formaları və konstitusionalizmin elementi kimi hakimiyyətin bölgüsünə dair müasir konsepsiyanın xüsusiyyətləri.

Jurnal ildə dörd dəfə nəşr edilir.

Jurnalın açıq elektron versiyasını aşağıdakı keçiddən əldə etmək olar: *www.jhss-khazar.org*.

NEW ISSUE OF KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES PUBLISHED

The new issue of Khazar Journal of Humanities and Social Sciences (Vol 21, № 2, 2018), has been published by Khazar University Press.

Issues that were touched upon in this issue include the reforming Georgian education/ recommendations for using classroom assessment; EFL students' perceptions of teacher feedback and intra-feedback in writing essays; 9-11 year old students' perception of violence reflected in their drawings; energy strategy development of Azerbaijan, Turkmenistan and Uzbekistan; forms of stating the right to freedom of association in International Regulatory Acts and the features of the modern concept of separation of powers as an element of Constitutionalism.

The Journal is published four times a year in English.

The open-access electronic version of the journal can be found at: *www.jhss-khazar.org*.

XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU İLƏ MÜSAHİBƏ

WEBSITE OF "KASPI" NEWSPAPER POSTS AN INTERVIEW WITH A KHAZAR UNIVERSITY GRADUATE

İyunun 1-də gündəlik ictimai-siyasi nəşr olan "Kaspi" qəzetinin internet səhifəsində Xəzər Universitetinin məzunu, ADA Universitetinin İctimai və Beynəlxalq Münasibətlər İnstitutunun baş müəllimi Rəşad İbadovla "Uğur hekayəsi" rubrikasında "Uğuru şəxsi keyfiyyətlər və qazandığın nailiyyətlər gətirir" sərlövhəli müsahibə dərc olunmuşdur. Müsahibənin müəllifi Aygün Əzizdir.

Müsahibəni bu linkdə oxumaq olar:

http://kaspi.az/az/uuru-sexsi-keyfiyyetler-ve-qazandin-nailiyyetler-getirir-uur-hekayesi/#Kalibri

On June 1, the website of "Kaspi" newspaper, a daily public and political publication, posted an interview with headline "Personal features and achievements lead to success" which was given by Rashad Ibadov, a Khazar University graduate and head instructor at Institute of Public and International Relations of ADA University. The interview was taken by Aygun Aziz and posted in the rubric "Success Story".

The interview is available at:

http://kaspi.az/az/uuru-sexsi-keyfiyyetler-ve-qazandin-nailiyyetler-getirir-uur-hekayesi/#Kalibri

PROFESSOR HAMLET İSAXANLI BEYNƏLXALQ KONFRANSDA ÇIXIŞ ETDİ

PROFESSOR HAMLET ISAKHANLI DELIVERED A SPEECH AT INTERNATIONAL CONFERENCE

Tbilisi İvane Cavaxişvili Dövlət Universitetinin (TDU) 100 illik yubileyi münasibətilə Klassik Bizans və Müasir Yunanşünaslıq İnstitutunun mayın 28-dən 30-dək təşkil etdiyi beynəlxalq konfransda Azərbaycanı Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı təmsil edirdi. Professor İsaxanlı konfransın ilk günündə *"Platon fəlsəfəsində riyaziyyat və poeziyanın vəhdəti"* adlı mühazirə ilə çıxış etdi.

"Fənlərarası kontekstdə Platon fəlsəfəsi" adlı beynəlxalq konfransda İngiltərə, İrlandiya, ABŞ, Kanada, Braziliya, Almaniya, Fransa, İsveçrə, İtaliya, İspaniya, Macarıstan, Yunanıstan, Türkiyə, Gürcüstan, Ermənistan, Rusiya, Hindistan, Çin və Yaponiya kimi ölkələrin (21 ölkə) nümayəndələri də iştirak edirdilər.

Professor Hamlet Isakhanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, represented Azerbaijan at the international conference *on "Plato's Philosophy in Interdisciplinary Context"* which was held on May 28 - 30, 2018. The conference was dedicated to the 100th Anniversary of Ivane Javakhishvili Tbilisi State University (TSU) and was organized by the Institute of Classical Byzantine and Modern Greek Studies. On the first day of the conference Prof. Isakhanli delivered his speech on *"Platonic Unification of Mathematics and Poetics"*.

The international conference was attended by participants from England, Ireland, USA, Canada, Brazil, Germany, France, Switzerland, Italy, Spain, Hungary, Greece, Turkey, Georgia, Armenia, Russia, India, China and Japan (21 countries).

PROFESSOR HAMLET İSAXANLI QAFQAZ PLATON CƏMİYYƏTİNİN İDARƏ HEYƏTİNƏ SEÇİLDİ

PROFESSOR HAMLET ISAKHANLI IN THE BOARD OF GOVERNORS OF CAUCASUS PLATO SOCIETY

Mayın 28-dən 30-dək Klassik Bizans və Müasir Yunanşünaslıq İnstitutunun təşkilatçılığı ilə Gürcüstanın Tbilisi İvane Cavaxişvili Dövlət Universitetinin (TDU) 100 illik yubileyinə həsr edilmiş *"Fənlərarası kontekstdə Platon fəlsəfəsi"* adlı beynəlxalq konfransın son günündə Qafqaz Platon Cəmiyyətinin yaradılması qərarlaşdırılmışdır.

Cəmiyyətin 3 nəfərdən ibarət İdarə Heyətinə Azərbaycandan Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı seçilmişdir.

On the last day of the international conference *"Plato's Philosophy in Interdisciplinary Context"*, held on 28-30 May, dedicated to the 100th Anniversary of Ivane Javakhishvili Tbilisi State University (TSU) and organized by the Institute of Classical Byzantine and Modern Greek Studies, it was decided to establish Caucasus Plato Society.

Professor Hamlet Isakhanli was elected from Azerbaijan as one of the three members of the Society's Board of Governors.



MÜHƏNDİSLİK VƏ TƏTBİQİ ELMLƏR FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ TÜRKİYƏDƏ

STUDENTS OF THE SCHOOL OF ENGINEERING AND APPLIED SCIENCES IN TURKEY

Mayın 4-dən 10-dək Türkiyədə Boğaziçi Universitetinin Mühəndislik Cəmiyyəti tərəfindən hər il təşkil edilən ICAMES-in (Mühəndislik Tələbələrinin Beynəlxalq Mədəniyyət və Akademik Görüşü) 23-cü görüşü keçirildi. Tədbirdə Türkiyə, Misir, İtaliya, Kanada, Kolumbiya, Banqladeş, İordaniya və Makedoniyadan müxtəlif komandaların iştirakı ilə keçirilən builki tədbirdə Azərbaycanı Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin Elektronika və telekommunikasiya departamentinin müdiri Nuru Səfərovun rəhbərliyi altında həmin fakültənin 5 nəfər tələbəsi (Tərlan Həsənli, Lətif Quliyev, Hüseyn Əskərov, Beydulla Zeynalov və Əlikram Həsənli) təmsil edirdi.

İCAMES beynəlxalq mühəndislik layihəsi yarışmasıdır. Yarışmada iştirak etmək üçün yeganə şərt - bakalavr tələbələri tərəfindən mühəndislik ilə əlaqəli hazırlanan layihə təqdim etməkdir. İCAMES-in builki mövzusu "Bərpa olunan enerji" haqqında layihə təqdim etmək idi.

Xəzər Universitetinin komandası bu yarışmaya 2-ci dəfə qatılmışdı. Bu yarışmada onlar "Piezoelektrik enerjinin alınması" mövzusunda təqdimat keçirdilər. Bu layihənin tətbiq üsulları və gələcəklə bağlı planlaşdırılan layihələr barədə iştirakçılara geniş məlumat verildi.

Tədbirdə, həmçinin, Azərbaycanın və Xəzər Universitetinin tanıdılması məqsədilə "Mədəniyyət gecəsi" adlanan hissədə Azərbaycanın müxtəlif şirniyyat və içkiləri digər iştirakçılara təqdim olunaraq, ölkə barədə iştirakçılara geniş məlumat verildi.

On May 4-10, 23rd ICAMES (International Cultural and Academic Meeting of Engineering Students), organized by Engineering Society of Boğaziçi University, took place. Teams from Turkey, Egypt, Italy, Canada, Colombia, Bangladesh, Jordan and Macedonia participated in the event. 5 students (Tarlan Hasanli, Latif Guliyev, Huseyn Askerov, Beydulla Zeynalov and Alikram Hasanli) of the School of Engineering and Applied Sciences, represented Khazar University in the event. The team was led by Nuru Safarov, Head of the Department of Electronics and Telecommunication, the School of Engineering and Applied Sciences.

ICAMES is an international engineering project competition. The only condition for participation in the competition is to submit a project in engineering which is designed by undergraduate students. This year's topic of ICAMES was "Renewable energy".

Khazar University team has joined this competition for the second time. The team made a presentation on "Piezoelectric Power harvesting" informing the participants about the application of the project and plans to be realized with regard to the project.

Moreover, some steps were taken to introduce Azerbaijan and Khazar University in the event. In "Culture night" part of the event, the team members presented Azerbaijani candies and beverages to the participants and enlightened them about Azerbaijan.

İQTİSADİYYAT VƏ MENECMENT FAKÜLTƏSİNİN TƏLƏBƏSİ MÜKAFAT ALDI

Mayın 10-da Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin 2-ci kurs tələbəsi Aydın Səlimlinin seçkilərlə bağlı yazdığı məqalə Avropa İttifaqının dəstəyi ilə Demokratiyanı Öyrənmə İctimai Birliyinin icra etdiyi "Azərbaycanda Azad və Ədalətli Seçkilər üçün Vətəndaş İştirakçılığı" layihəsi çərçivəsində həyata keçirilən "Mən və Seçkilər" onlayn esse müsabiqəsində 3-cü yerə layiq görülmüşdür.

Xatırladaq ki, müsabiqəyə 30-dan artıq məqalə təqdim edilmişdi. Qaliblər pul mükafatı və sertifikatla təltif olundular.

Məqaləni bu link vasitəsilə oxumaq olar: *http://seckiler.az/2018/04/03/genc-secici-a-selimli/*


STUDENT OF THE FACULTY OF ECONOMICS AND MANAGEMENT REWARDED

On May 10, an article on the elections by Aydin Salimov, a second year student of the Faculty of Economics and Management, held the third place in the "Me and Elections", an online essay contest, held within the project "Civil Participation for Free and Fair Elections in Azerbaijan" realized by Study of Democracy Public Union with the support of the European Union.

More than 30 articles were submitted to the contest. The winners were rewarded with cash prizes and certificates.

A link to the article: *http://seckiler.az/2018/04/03/genc-secici-a-selimli/*





SEMİNAR: "KARYERANI AZƏRİKARD İLƏ BAŞLA"

Mayın 11-də Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin kompüter elmləri və kompüter mühəndisliyi ixtisası üzrə təhsil alan 3-cü kurs tələbələri üçün "Karyeranı AzəriKard ilə başla" adlı seminar keçirildi. Seminarda AzəriKard şirkətinin əməkdaşları - Müştərilərlə əlaqələr və biznesin inkişafı departamentinin direktoru Cahangir Məmmədov və İnsan Resursları üzrə menecer Elnarə Novruzova təqdimat ilə çıxış etdilər. C.Məmmədov təqdimatında şirkətin strukturu, həyata keçirdiyi layihələr, əməkdaşlıq etdikləri qurumlar və şirkətdə karyera, təcrübə imkanları haqqında məlumat verdi.

Seminarda universitetin İnformasiya texnologiyaları şöbəsinin müdiri Fərid Musayev, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini Dr. Fəxrəndə Əlimərdanova və Karyera mərkəzinin meneceri Səbinə Allahverənova iştirak edirdilər.

Sonda şirkətin nümayəndələri tələbəri maraqlandıran sualları cavablandırdılar.

A SEMINAR "START YOUR CAREER WITH AZERICARD"

On May 11, a seminar "Start your career with AzeriCard" was held for the third-year students of the School of Engineering and Applied Sciences of Khazar University. In the seminar, Jahangir Mammadov, Director of the Department of Customer Relations and Business Development of AzeriCard, and Elnara Novruzova, HR Manager, delivered presentations. In his presentation, Jahangir Mammadov talked about the structure of the company, its projects and partner companies as well as career and internship opportunities at AzeriCard.

Farid Musayev, Head of Department of Information Technologies, Dr. Fakhranda Alimardanova, Vice-dean of the School of Engineering and Applied Sciences, and Sabina Allahverdiyeva, Manager of Career Center, participated in the seminar.

In the end, associates of the company answered participants' questions.




KARYERA MƏRKƏZİNİN NÖVBƏTİ MƏLUMAT SESSİYASI


Mayın 12-də Xəzər Universiteti Karyera mərkəzi universitetin Mərkəz kampusunda magistr tələbələri üçün məlumat sessiyası keçirdi. Karyera Mərkəzinin meneceri Səbinə Allahverənova Karyera Sərgisinə hazırlıq prosesi və mərkəzin fəaliyyəti barədə tələbələrə məlumat verdi.

NEXT INFORMATION SESSION OF CAREER CENTER

On May 12, Sabina Allahverenova, The Manager of Career Center of Khazar University held an information session for Master students in the campus located in the city center (122 B. Safaroghlu St.). During the session, students were informed about the center as well as the preparation process for Career Fair.







"AZƏRBAYCAN SEVGİ POEZİYASI" KİTABININ İLK 2 CİLDİ İRANDA NƏŞR OLUNDU

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Azərbaycan Sevgi Poeziyası" kitabının ilk 2 cildi İranın "Əxtər" nəşriyyatında nəşr olunmuşdur (ərəb əlifbası ilə Azərbaycan dilində). Kitab Hamlet İsaxanlının "Yaxşı sevgi şeirlərimiz..." adlı giriş sözü və "Sevgi və Poeziya" adlı məqaləsi ilə açılır.

THE FIRST TWO VOLUMES OF THE BOOK "THE LOVE POETRY OF AZERBAIJAN" WERE PUBLISHED IN IRAN

The first two volumes of the book "The Love Poetry of Azerbaijan" by Professor Hamlet Isakhanli, founder of Khazar Univerasity and Chairman of its Board of Directors and Trustees, was published by "Axtar" publishing house in Iran (in Azerbaijani with Arabic alphabet). The book starts with the " Our good love poems..." preface by Hamlet Isakhanli and his article "Love and Poetry"



XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI ABŞ - DA İŞGÜZAR SƏFƏRDƏ

KHAZAR UNIVERSITY ASSOCIATE ON A BUSINESS TRIP TO THE USA

Xəzər Universitetinin layihə rəhbəri və Əlilliyi olan Tələbələr üçün Mərkəzin koordinatoru Rima Məmmədova ABŞ Konqresinin maliyyə dəstəyi ilə həyata keçirilən, Azərbaycanda ABŞ səfirliyinin idarə etdiyi "Əlilliyin Müdafiəsi və İslahatlar üçün Açıq Dünya" adlı mübadilə proqramı çərçivəsində mayın 2-dən 12-dək Amerika Birləşmiş Ştatlarında işgüzar səfərdə oldu.

Səfər iki hissədən ibarət idi. Səfərin birinci hissəsi mayın 2 - 3-də Vaşinqton şəhərində baş tutdu. Öncə keçmiş səfir və "Açıq Dünya"nın Qəyyumlar Şurasının icraçı direktoru Con O'Kif Azərbaycan və Kosovadan olan nümayəndələri salamladı və "Açıq Dünya" Liderlik Mərkəzi haqqında geniş məlumat verdi. Sonra Amerika Universitetinin müəllimi Dr. Ceyms Kirk Amerika federalizmi haqqında məruzə oxudu və Amerikanın siyasi sistemi haqqında geniş məlumat verdi. Georgetown Universitetinin müəllimi Dr. Sem Potoliçionun "Dünya liderlərinin hazırlanması" mövzusunda mühazirəsi dinlənildi. Birinci hissənin sonu Vaşinqton şəhərinin gəzintisi ilə başa çatdı.

Səfərin ikinci hissəsi Şimali Nevada Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə ABŞ-ın Nevada ştatının Rino şəhərində mayın 4 - 10-da keçirildi. Azərbaycandan olan nümayəndələr Rino və Karson şəhərlərində əlilliyi olan şəxslər üçün yaradılmış şəraitlə tanış oldular və onların hüquqlarını müdafiə edən və sosial şəraitlə təmin edən dövlət və qeyri-hökumət təşkilatları haqqında məlumat əldə etdilər.

Səfər zamanı Nevada Əlilliyin qorunması və Hüquq Mərkəzi, Əlillikdə Mükəmməllik üçün Nevada Mərkəzi, Nevada Universitetinin Əlilliyi olan Şəxslər üçün Resurs Mərkəzi və s. təşkilat və mərkəzlərin fəaliyyətləri ilə tanışlıq oldu, Azərbaycanda əlilliyi olan şəxslərin hüquqlarının qorunması üçün həyata keçirilən fəaliyyətlər haqqında məlumat verildi. Rima Məmmədova Azərbaycanda yaradılmış və Xəzər Universitetində fəaliyyət göstərən ilk Əlilliyi olan Tələbələr üçün Mərkəz haqqında həmkarlarına geniş məlumat verdi və gələcək əməkdaşlığa dəvət etdi.

Nümayəndələr, həmçinin, ABŞ Konqresinin üzvü olan Mark Amodinin Rino şəhərində fəaliyyət göstərən ofisinin əməkdaşları ilə görüşdülər. Görüş zamanı Rima Məmmədova konqresin mükafatı (sertifikat) ilə təltif edildi.

Səfər zamanı Nevada ştatında yerləşən Taho gölünə gəzinti təşkil olundu.

On May 2-12, Rima Mammadova, Coordinator of Center for Students with Disabilities of Khazar University, went on a business trip to the USA. The trip was organized within Open World Program for Disability Advocacy and Reform exchange program financed by USA Congress and managed by USA Embassy to Azerbaijan. The trip consisted of two parts. The first part of the trip was on May 2-3, 2018, in Washington city. John O'Keefe, former ambassador and CEO of the Board of Trustees of Open World, greeted the delegations from Azerbaijan and Kosovo and informed them about Open World Leadership Center. Then James M.Quirk, an instructor of American University, delivered a lecture on American Federalism and American political system. Later Dr Sam Potolicchio, an instructor of Georgetown University, delivered a lecture on "Training world leaders". The first part ended with a walk in Washington city.

The second part of the trip was on May 4 -10 in Reno city, Nevada state. This part was organized by International Center of Northern Nevada. In this part, Azerbaijani delegation got acquainted with conditions provided for people with disabilities in Reno and Carson cities. The delegation also got information on governmental and non-governmental organizations which protect the rights of people with disabilities and ensure their welfare. Moreover, during the trip, the delegation visited Nevada Disability Advocacy and Law Center, Nevada Center for Excellence in Disabilities, Disability Resource Center affiliated with Nevada University and other organizations. The delegation also delivered information on protection of rights of people with disabilities in Azerbaijan. Rima Mammadova informed her counterparts about Center for Students with Disabilities established at Khazar University and called them for collaboration.

The delegations as well as Mark Amodei, a member of the US Congress, met associates of the centre in Reno city. In the meeting, Rima Mammadova was awarded a certificate of US Congress. The delegation also went on a trip to Lake Tahoe.




CONGRESSIONAL RECOGNITION
AWARDED TO
U.S. HOUSE OF REPRESENTATIVES
RIMA MAMMADOVA
CNTR. FOR STUDENSTS WITH DISABILITIES AT KHAZAR UNIV.
In honor of your participation in the Open World program.
Thank you for your outstanding commitment and interest
in the American democratic government systems.
Date: May 8, 2018
Mark E. Amodei
Member of Congress











"İNNOVASİYA VƏ LİDERLİK" MÖVZUSUNDA SEMİNAR

Mayın 15-də Nyu - Yorkdakı "Rocheston" MMC-nin prezidenti, İdarə Heyətinin sədri Haja Mohidin, vitse-prezident Vasanth Davis Xəzər Universitetinin Mərkəz kampusunda İqtisadiyyat və menecment fakültəsinin tələbələri üçün "İnnovasiya və liderlik" mövzusunda seminar keçirdilər. Seminar biznes innovasiyası, dizayn, inqilabi ideyalar, startaplar, internetə qoşulan cihazlar, əqli mülkiyyət və patent hüququ mövzularını əhatə edirdi.

Seminarın sonunda Haja Mohidin və Xəzər Universiteti Tələbələrin cəlb olunması üzrə işçi qrupunun rəhbəri professor Fuat Rəsulov iştirakçılara sertifikat təqdim etdilər.

SEMINAR ON "INNOVATION AND LEADERSHIP"

Mr. Haja Mohideen, President & CEO, Rocheston LLC, New York and Mr. Vasanth Davis, vice-president has delivered a seminar on "Innovation and Leadership" on 15th of May at 14:00, Bashir Safaroglu campus. The covered topics were Business Innovation, Design Thinking, Game Changing Ideas, Startups, Internet of Things (IoT), IPR and Patents. Economics and Management Faculty students participated in the seminar.

At the end of the seminar certificates were delivered by Mr.Haja Mohideen and Fuat Resulov, Director of Prospective Students.





SEMİNAR: "İRQÇİLİK VƏ AYRI - SEÇKİLİYİN PSİXOLOGİYASI"

SEMINAR ON "PSYCHOLOGY OF RACISM AND DISCRIMINATION"

Mayın 16-da "Vision Academy" hazırlıq kursunda Xəzər Universitetinin İqtisadiyyat və menecment departamentinin koordonatoru Dr. Bahadır Baysal və "THE SAME" komandasının təşkilatçılığı ilə Xəzər Universitetinin Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin Direktoru Mələk Kərimovanın təqdimatında "İrqçilik və ayrı-seçkiliyin psixologiyası" seminarı keçirildi.

Seminarda: 1) İnsanlarda ayrı-seçkilik psixologiyası nədən yaranır? 2) Vahid bir məqsədə çatmaq üçün başqalarına qarşı ayrı-seçkilik etmək ehtiyacı nədən yaranır? 3) İnsanların öz irqlərini digərlərindən üstün bilməsi və öz irqinin daha yaxşı məqamlarda olması istəyi nədən yaranır? 4) İrqçilik və özünü təsdiq arasında əlaqə varmı? 5) İnsanların öz aqressiyalarını onlayn nifrət mesajları ilə bildirməsinin səbəbləri mövzuları müzakirə olundu.

Sonda iştirakçılara sertifikat verildi.

On May 16, a seminar on "Psychology of racism and discrimination" was conducted by Melek Kerimova, coordinator of the Department of Psychology and Director of the Psychological Service Center of Khazar University. The Seminar was held at Vision Academy on organizational support by Dr. Bahadir Baysal, coordinator of the Department of Economy and Management, and "THE SAME" team.

The seminar covered the following topics: 1) The reason for racism in human psychology; 2) The reasons for showing discrimination in order to achieve an aim; 3) The reason for desire to be superior to others and be in a better position in terms of race; 4) A question as to whether there is a relation between racism and self-realization; 5) The reason for expressing aggression through online hate messages.

At the end of the seminar, all the participants were certified.



XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ HSK2 İMTAHANININ QALİBİ OLDU

Mayın 16-da Xəzər Universitetində Çin dili dərsinin müəllimi Li Ya Laoshi və tələbələr semestr ərzində əldə etdikləri nailiyyətləri və göstərdikləri yüksək nəticəni birlikdə qeyd etdilər.

Qeyd edək ki, cari il martın 28-də Bakı Dövlət Universiteti Konfutsi İnstitutunda HSK2 test imtahanları keçirilmişdi. Çin dilini öyrənənlər üçün dünya miqyaslı HSK2 test imtahanında ilk dəfə Xəzər Universitetinin tələbələri Ağaxan Bağırlı və Nicat İsmayılov da iştirak etmişdilər. Ağaxan Bağırlı imtahanda Azərbaycan üzrə ən yüksək nəticəni əldə etmişdi.

KHAZAR UNIVERSITY STUDENT DID WELL IN THE HSK2 EXAM

On May 16, Li Ya Laoshi, an instructor of Chinese language at Khazar University, and students celebrated achievements and high results gained during the semester.

On March 28, HSK2 test exam was held at Confucius Institute of Baku State University. Aghakhan Baghirli and Nijat Ismayilov, students of Khazar University, participated in the HSK2 exam, a worldwide test exam for Chinese learners. Aghakhan Baghirli scored the highest mark in the exam in Azerbaijan

AMERİKADA TƏHSİL ALMAĞIN YOLLARI BARƏDƏ MÜZAKİRƏ



Mayın 23-də Xəzər Universiteti Karyera mərkəzinin təşəbbüsü ilə Amerikada təhsillə bağlı müzakirə keçirildi. Müzakirədə Leyla Həmidova (Education USA Advisor) Amerikada təhsil almağın yolları və təqaüd imkanları haqqında geniş məlumat verdi.

Sonda Leyla Həmidova tələbələrin suallarını cavablandıraraq, onlara universitet seçimi ilə bağlı məsləhətlər verdi

DISCUSSION ON EDUCATION OPPORTUNITIES IN AMERICA



On May 23, on the initiative of Career Center of Khazar University, a roundtable discussion on education opportunities in America was held. In the discussion, Leyla Hamidova (Education USA Advisor) informed the participants about education and scholarship opportunities in America.

Leyla Hamidova also answered students' questions and gave them advice on the choice of a university.





REJİSSOR NAZİM RZA İLƏ GÖRÜŞ

Mayın 17-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Zəhra İslamovun Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələrinə tədris etdiyi "Azərbaycan tarixi" dərsinə qonaq olaraq kino və televiziya rejissoru, kinodramaturq, beynəlxalq və ümumittifaq kinofestivallarının laureatı Nazim Rza dəvət olunmuşdu.

Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova tələbələrə Nazim Rzanı təqdim etdikdən sonra dərs tələbələrdən Ayan Ağakişizadə və Mətin Alməmmədlinin Nazim Rza haqqında hazırladıqları çıxışları ilə başlandı. Sonra Nazim Rza məruzə edərək, tələbələrə maraqlı və dəyərli məlumatlar verdi. Onlara neftimizin tarixindən, yazdığı kitablardan, filmlərindən bəhs etdi, suallarını cavablandırdı.

Sonda isə Nazim Rza müəllifi olduğu "Odlu məmləkət" kitabını tələbələrə hədiyyə etdi.

MEETING WITH NAZIM RZA, A FILM DIRECTOR

On May 17, Nazim Rza, a film and television director, a screenwriter, a laureate of international and All-Soviet Union film festivals, guested on the lesson "History of Azerbaijan" conducted by Zahra Islamova, an instructor of the Department of History and Archaeology, for the students of the School of Engineering and Applied Sciences. First, Roza Arazova, Head of the Department of History and Archaeology, introduced Nazim Rza to the students. Then the lesson started with a presentation on Nazim Rza delivered by the students - Ayan Aghakishiyeva and Matin Almammadli. Then Nazim Rza took the floor and gave the students interesting information talking about the history of Azerbaijani oil industry as well as the books and movies produced by him. Students listened with great interest and asked questions.

At the end of the meeting, Nazim Rza presented his book "Fiery country" to the students.









FULBRAYT TƏQAÜDÇÜLƏRİ ÜÇÜN QARŞILAMA TƏDBİRİ

WELCOME PARTY FOR FULBRIGHT SCHOLARS

Mayın 17-də Xəzər Universitetinin Mədəniyyət Mərkəzində Fulbrayt təqaüdçüləri - Wisconsin La-Crosse universitetindən dosent Robert Jecklin və Texas Tyler Universitetindən dosent Ali Azghani üçün qarşılama tədbiri keçirilmişdir.

Xəzər Universitetinin prorektoru dosent İradə Xəlilova qonaqları salamlayaraq təqaüdçülər, onların tədqiqat sahələri və bu sahədə əməkdaşlıq planları haqqında məlumat vermişdir. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Azərbaycan və ABŞ universitetləri arasında Fulbrayt təqaüdçülərinin mübadiləsi tarixçəsindən söz açmışdır.

Qarşılama tədbirinin iştirakçıları - Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs, Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasov və Məzunlarla iş şöbəsinin müdiri Baba Bayramlı təqaüdçüləri salamlayaraq onlara xoş sözlər ünvanlamış, Fulbrayt proqramı ilə məhsuldar əməkdaşlığa davam etmək istəklərini bildirmişlər.

Dosent Robert Jecklin və dosent Ali Azghani öz növbələrində Xəzər Universiteti əməkdaşlarına səmimi qarşılama və təqdidat üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildirmişlər.

Xəzər Universitetinin Kamera orkestri tədbiri klassik musiqi ilə müşayiət etmişdir.

On May 17, a welcome party for Fulbright scholars Robert Jecklin, Assistant Professor of University of Wisconsin-La Crosse and Ali Azghani, Associate Professor of the University of Texas at Tyler was held at Culture Center of Khazar University.

Vice-Rector of Khazar University, Assoc. Prof. Irada Khalilova welcomed the guests and delivered a speech, in which she gave brief information about the scholars, their research areas and plans for research collaboration. She expressed her warm words for both scholars. Then prof. Hamlet Isakhanli, Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees talked about the history of cooperation, Fulbright scholar exchanges between Azerbaijan and US universities.

Participants of the welcome party Dr. Hassan Niknafs, Rector of Khazar of University, Dr. Rovshan Abbasov, Head of the department of Geography and Environment, Dr. Baba Bayramli, Director of the Center for Alumni Relations, greeted the honorary scholars, expressed warm words to their address and wished a fruitful collaboration with Fulbright Program.

In their turn, Assistant Prof. Robert Jecklin and Assoc. Prof. Ali Azghani thanked Khazar University staff for such a warm greeting and the conditions provided for conducting research.

The whole ceremony was accompanied with beautiful classical music performed by Khazar University Orchestra












KİM - DƏ MÜZAKİRƏ

Mayın 18-də Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzi (KİM) "Gəlin, birlikdə mütaliə edək" layihəsi çərçivəsində "Müasir oxucular niyə daha çox psixoloji və motivasiyaedici kitablara üstünlük verirlər?" mövzusunda müzakirə keçirdi.

Tədbiri giriş sözü ilə Kitabxana-İnformasiya Mərkəzinin əməkdaşı Əsmira Hüseynova açdı. Xəzər Universitetinin məzunu, psixoloq Leyla Qasımova müzakirədə iştirak etdi. Tələbələr mövzunun müzakirəsinə çox fəal yanaşdılar və maraqlı fikirlər bildirdilər, belə tədbirlərin mütəmadi keçirilməsini arzu etdilər.

Tədbirdə KİM-in fəal oxucularına sertifikat təqdim olundu.

DISCUSSION AT LIC

On May 18, Library and Information Center (LIC) of Khazar University held a discussion on the topic "Why do modern readers prefer psychological and motivational books?" within the project "Let's read together".

Esmira Huseynova, an associate of Library and Information Center, opened the meeting. Psychologist Leyla Gasimova, a Khazar University graduate, also participated in the discussion. Students took an active part in the discussion and expressed interesting opinions. Similar events were requested to be held in the future.

Readers of Library and Information Centre were presented with certificates at the event.



THE SAME KOMANDASI MAG TELEVİZİYA PROQRAMININ QONAĞI OLDU



THE SAME TEAM GUESTS ON THE MAG TV BROADCAST

Mayın 18-də Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələrindən ibarət THE SAME komandası AzTV kanalında yayımlanan "MAG"("Müasir Azərbaycan Gənci") proqramında çıxış etdi. Qeyd edək ki, MAG televiziya proqramı Azərbaycan gənclərinin fəaliyyət və uğurlarını işıqlandıran, gənclər arasında ən baxımlı verilişlərdən biridir.

Komanda öz çıxışında gördüyü işlərdən və gələcək planlarından danışdı. Eləcə də, *Peer to Peer: Facebook Qlobal Rəqəmsal Çağırış* müsabiqəsinin gənclərə verdiyi töhfələrdən söhbət açıldı. Əsas məqsədi irqçi onlayn nifrət nitqlərinə qarşı təşkilat yaratmaq olan komanda sosial media hesablarının necə idarə edilməsi, hansı yollardan istifadə etməklə daha çox kütlənin cəlb edilməsi və öz ideyalarının gənclər tərəfindən yüksək qiymətləndirilməsi haqda danışdı.

İlk olaraq, komandanın lideri Dr. Bahadır Baysal komandanın necə ərsəyə gəldiyini, komanda üzvlərinin hansı bacarıqlara sahib olaraq, digər tələbələrdən seçildiklərini və komanda üzvlərinin marketinq və digər ixtisas yönümlü bacarıqlarının onlara nə dərəcədə bu müsabiqədə kömək olduğunu qeyd etdi. Sonra komandanın üzvü Xəyalə Şıxəliyeva THE SAME-in mahiyyəti və əsas məqsədləri barəsində çıxış etdi və komandanın keçirdiyi ilk sorğunun onların qərarlarına necə təsir etdiyini söylədi. Komandanın üzvü Ruslan Osmanlı *EdVenture Partners* şirkətinin *Peer to Peer: Facebook Qlobal Rəqəmsal Çağırış* müsabiqəsi və bu müsabiqəyə necə qoşulmaq barəsində məlumat verdi. Komandanın digər üzvləri Sinan Rzayev və Etibar Saatov isə THE SAME komandasının sosial media strategiyası, keçirdikləri və gələcəkdə gözlənilən layihələri haqqında danışdılar.

Verlişi bu link vasitəsilə izləmək olar:

https://www.youtube.com/watch?v=TAvp8s9rrV8

On May 18, THE SAME team, which consists of the students of the School of Economics and Management of Khazar University, guested on the MAG (Modern Azerbaijani Youth), an AzTV broadcast which highlights the activities and achievements of the Azerbaijani youth.

The team members talked about their activities and future plans as well as the contribution of Peer to Peer: Facebook Global Digital Challenge to the team. The team, whose aim is to struggle against online hate speech, also talked about effective ways of managing media accounts as well as efficient methods of drawing large audience and appreciation of the youth.

First, Dr. Bahadir Baysal, a team leader, gave information about the establishment process of the team as well as the skills of the team members. Moreover, he emphasized marketing and other relevant skills of the team members which are of immense importance for successful participation in the competition. Then Khayala Shikhaliyeva, a team member, talked about the essence and aim of THE SAME and also noted how the first survey conducted by the team influenced their decision. Later Ruslan Osmanli, a team member, talked about EdVenture Partners company and terms of participation in Peer to Peer: Facebook Global Digital Challenge. Sinan Rzayev and Etibar Saatov, team members, informed the viewers about social media strategy as well as current and future projects of THE SAME team.

You can watch the event through the following link:

https://www.youtube.com/watch?v=TAvp8s9rrV8

PAWER LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ ALMATIDA GÖRÜŞ

Xəzər Universitetinin əməkdaşları mayın 16-18-də Qazaxıstan Milli Kənd Təsərrüfatı Universitetində PAWER layihəsi çərçivəsində keçirilən idarəetmə görüşündə və təlimdə iştirak etdilər.

L'Aquila Universitetinin (İtaliya) koordinasiya etdiyi PAWER (Regionlararası Mobilliyin və Keçid Uyğunluğunun Yolunun Açılması, Keyfiyyət və Keçid Bərabərliyi) layihəsinin iştirakçılarından biri də Xəzər Universitetidir. Layihə kredit ayırma və qiymətləndirmə sistemini uyğunlaşdıraraq, AB və tərəfdaş ölkələr arasında mobilliyi təşviq etməyi və dəstəkləməyi hədəfləyir.

Gürcüstan, Macarıstan, İtaliya, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Rusiya, Tacikistan və Özbəkistan universitetlərinin nümayəndələri təlimdə bir araya gəldilər. Tədbirdə Xəzər Universitetini Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini Dr. Fəxrəndə Əlimərdanova, İnkişaf Mərkəzinin layihə meneceri Ülkər Bəyramova və İqtisadiyyat və menecment fakültəsinin koordinatoru Dr. Elvin Məmmədov təmsil edirdilər.

Təlimin məqsədi Bolonya prosesi, AKTS (ECTS), mobillik sazişləri, mübadiləsi zamanı və sonrasında dəstək, tələbə və işçilərin mobilliyinə dair mühüm məsələləri müzakirə etmək idi. Təlim, həmçinin, ölkələrində seminarlar və bacarıqların artırılması ilə layihə məlumatlarının yayılmasına davam edəcək olan milli təlimçilər hazırlamağı nəzərdə tutur.

PAWER MEETING IN ALMATY

On May 16-18, staff members of Khazar University participated in a training that took place within the PAWER project at Kazakhstan National Agrarian University, Almaty.

Khazar University is one of the universities participating in the PAWER (Paving the Way to Interregional Mobility and Ensuring Relevance, Quality and Equity of Access) project coordinated by the University of L'Aquila (Italy). The project aims at promoting and supporting mobility between EU and partner countries by harmonizing the credit allocation and grading system.

The training brought together representatives of universities from Georgia, Hungary, Italy, Kazakhstan, Kyrgyzstan, Mongolia, Russia, Tajikistan, and Uzbekistan. Dr. Fakhranda Alimardanova, Vice-dean of the School of Engineering and Applied Sciences, Ulkar Bayramova, Project manager of Development Office and Dr. Elvin Mammadov, Coordinator of the School of Economics and Management represented Khazar University during the training.

The goal of the training was to discuss important issues associated with mobility of students and staff, including Bologna process, ECTS, mobility agreements, support before, during and after exchanges, mobility policy, etc. The training also aimed at preparing national trainers who will continue disseminating project information by delivering workshops and building capacity in their home countries.





XƏZƏR UNİVERSİTETİNDƏ "AZƏRBAYCAN - ÇİN DOSTLUĞU" ADLI TƏDBİR

A CEREMONY ENTITLED "AZERBAIJAN - CHINESE FRIENDSHIP" HELD AT KHAZAR UNIVERSITY

Mayın 18-də Xəzər Universitetinin tələbələri Bakı Dövlət Universiteti Konfutsi İnstitutunun dəstəyi ilə "Azərbaycan-Çin dostluğu" adlı tədbir keçirdilər.

Tədbir Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin ingilis dili müəllimi Səadət Fərhadovanın təkilatçılığı, Xəzər Universiteti Çin dili və mədəniyyəti təlimçisi, eyni zamanda, BDU Konfutsi İnstitutunda da tətimçi olan Li Yanın və Universitetin İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Mehdi Nourinin köməyi ilə hazırlanmışdı.

Tədbirin məqsədi qədimdən sıx dostluq və tərəfdaşlıq əlaqələri olan iki dövlətin daha da güclənməkdə olan dostluğuna töhfə vermək, iştirakçıları onların tarixi, mədəniyyəti, təhsili və iqtisadiyyatı barəsində geniş məlumatlandırmaq idi. Tədbirin bədii hissəsində tələbələr milli geyimlərdə Azərbaycan və Çin milli rəqslərinin ifa etdilər.

Tədbirin sonunda müzakirələr keçirildi.

On May 18, Khazar University students held a ceremony entitled "Azerbaijan - Chinese friendship" with the support of Confucius Institute of Baku State University.

The ceremony took place with organizational support by Seadet Farhadova, an instructor of the Department of English Language and Literature at Khazar University, Li Ya, representative of Chinese language and culture at Khazar University as well as Confucius Institute of Baku State University, and Mehdi Nouri, a student of the Faculty of Economics and Management.

The aim of the ceremony is to contribute to the friendship between Azerbaijan and China, which have had strong relations for centuries. The ceremony covered the history, culture, education and economics of the two countries. In the cultural part of the ceremony, students performed Azeri and Chinese dances in national clothes of the two countries.

At the end of the ceremony, participants had discussions and had memory photos taken.

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



BOLQARİSTANLA ELMİ ƏLAQƏLƏR

AMEA-nın nümayəndə heyəti Bolqarıstanda səfərdə olmuş, qarşılıqlı elmi əlaqələrin inkişaf etdirilməsi sahəsində mühüm addımlar atılmışdır.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli Bolqarıstanın Qabrovo şəhərində keçirilən Satira və yumor festivalında iştirak etmişdir. Azərbaycanın Şəki şəhəri ilə qardaşlaşmış Qabrovodakı Satira və Yumor Evində Bolqarıstanda xalq gülüşünün, satirik ədəbiyyatın ənənələri, həmçinin karikatura sənətinin tarixi və mövcud reallıqlar ətrafında söhbət aparılmış, bu istiqamətdə elmi tədqiqatların aparılması üzrə razılıq əldə olunmuşdur.

AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu ilə Bolqarıstan Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu arasında qarşılıqlı əməkdaşlığa dair müqavilə imzalanmışdır.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli və Bolqarıstan Elmlər Akademiyası Ədəbiyyat İnstitutunun direktoru, professor Elka Traykova ölkələr arasındakı ədəbi əlaqələrə və realist-satirik ədəbiyyatın poetikasına dair birgə tədqiqatların aparılmasını əhəmiyyətli hesab etmişlər.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu və Bolqarıstan EA Arxeologiya İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanmışdır. Bolqarıstanın Arxeologiya Muzeyində Azərbaycan arxeologiya elminin nailiyyətlərinə həsr edilmiş sərgi açılmış və elmi konfrans keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının Bolqarıstandakı Fövqəladə və səlahiyyətli səfiri Nərgiz Qurbanova, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, Bolqarıstan EA-nın vitse-prezidenti, akademik Boris Nikolov və başqaları çıxış edərək ölkələrimiz arasındakı elmi əlaqələrin əhəmiyyətindən və perspektivlərindən bəhs etmişlər.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu əməkdaşlarının Bolqarıstanda aparılan elmi ekspedisiyalarda iştirakı və elmi əsərlərin nəşrindən razılaşma əldə olunmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının nümayəndə heyəti Bolqarıstan EA Antropologiya İnstitutunun iş təcrübəsi ilə tanış olmuş və Antropologiya Muzeyindəki alimlər tərəfindən bərpa edilmiş ədəbi-tarixi şəxsiyyətlərin maketlərinə baxmışlar. Görüşdə antropologiya sahəsində əməkdaşlığın perspektivlərindən bəhs olunmuşdur.

Ağahüseyn Şükürov

XƏZƏR UNİVERSİTETİ İRANIN ELM VƏ MƏDƏNİYYƏT UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ QURDU

KHAZAR UNIVERSITY ESTABLISHES COOPERATION WITH THE UNIVERSITY OF SCIENCE AND CULTURE OF IRAN



Mayın 29-da Xəzər Universitetinin rektoru Dr. Hassan Niknafs Elm və Mədəniyyət Universitetinin rektoru, Kök Hüceyrə Texnologiyası şirkətinin İcraçı direktoru Dr. Seid Haşimi və İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin nəzdindəki Mədəniyyət Mərkəzinin direktoru Əsgər Farsi ilə görüş keçirdi. Görüşdə, həmçinin, Xəzər Universitetində doktorantura təhsili alan Mehdi Zakeri və Beynəlxalq əlaqələr şöbəsinin direkoru Turan Cəfərova da iştirak edirdilər.

Görüş zamanı tərəflər elmi tədqiqatlar sahəsində əməkdaşlıq imkanlarını müzakirə etdilər. Görüşdə iki universitet arasında Anlaşma Memorandumu imzalandı.

On May 29, Dr. Hassan Niknafs, Rector of Khazar University met with Dr. S. Saeed Hashemi, the president of the University of Science and Culture, Managing Director of the Stem Cell Technology CO, and Asgar Farsi, Director of the Cultural Center under the Embassy of the Islamic Republic of Iran in Azerbaijan. Participants of the meeting also included Mr. Mehdi Zakeri, a PhD student of Khazar University and Ms. Turan Jafarova, Director of the International Affairs Office.

During the meeting, parties discussed research collaboration and a Memorandum of Understanding between the two universities was signed.



XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ AVROPA-AZƏRBAYCAN MƏKTƏBİNDƏ

ASSOCIATES OF KHAZAR UNIVERSITY VISIT THE CAMPUS OF THE EUROPEAN AZERBAIJAN SCHOOL

Mayın 21-də Xəzər Universitetinin Tələbələrin cəlb olunması üzrə işçi qrupunun rəhbəri professor Fuat Rəsulov və İnsan resursları meneceri Özal Məmmədli Avropa-Azərbaycan məktəbinin kampusunda Xəzər Universitetini tanıtmaq məqsədilə görüş keçirdilər. Görüşdə əsasən 10-cu sinif şagirdləri iştirak edirdilər.

Şagirdlərlə görüşdən əvvəl məktəbin Universitet işləri üzrə məsləhətçiləri Lalə Rüstəmova və Humanitar departamentinin koordinatoru Namiq Məmmədovla qısa görüş oldu. Görüşdə səfərin məqsədləri və şagirdlərə çatdırılacaq məlumat haqda qısa olaraq danışıldı.

Avropa-Azərbaycan məktəbinin İB proqramı üzrə təhsil alan şagirdləri ilə görüş zamanı ilk növbədə Xəzər Universiteti barədə videoçarx göstərildi. Sonra isə görüş ingilis dilində gerçəkləşdi, şagirdlərə universitetin imkanları və üstünlükləri barəsində məlumat verildi.

Görüşün sonunda şagirdlərin sualları cavablandırıldı. Universitetin reklam bukletləri və suvenirlər onlara təqdim olundu.

On May 21, Prof. Fuat Rasulov, Coordinator of the working group for prospective students, and Ozal Mammadli, HR Manager, held a meeting at the campus of the European Azerbaijan School to promotion Khazar University. The participants were mainly 10th-grade students. Before the meeting with students, Khazar University associates had a short meeting with Lala Rustamova, School Advisor on University Affairs, and Namig Mammadov, Coordinator of the Department of Humanitarian Affairs. The University associates informed the school staff about the aim of the visit and shared promotional booklets, catalogues, etc. with them.

During the meeting with students of IB program of the European Azerbaijan School, a promotional video about Khazar University was played. In the meeting, which was held in English, a presentation was made about opportunities and advantages at Khazar University.

University associates answered students' questions and gave them promotional booklets and souvenirs.

TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİNƏ DOSENT DİPLOMU VERİLDİ

ACADEMIC TITLE ASSOCIATE PROFESSOR CONFERRED ON THE INSTRUCTOR OF THE DEPARTMENT OF HISTORY AND ARCHAEOLOGY



Mayın 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasında (AAK) diplomların təqdim olunması mərasimi keçirilmişdir. Mərasimdə Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Səbuhi Əhmədova AAK kollegiyasının 13 aprel 2018-ci il tarixli qərarına əsasən "Vətən tarixi" ixtisası üzrə dosent (Associate Professor) diplomu verilmişdir.

Qeyd edək ki, S.Əhmədov Azərbaycanın hərb tarixi və heraldikasına aid 15 kitabın, 100-dən artıq elmi və elmi-populyar məqalələrin müəllifidir.

On May 22, a diploma presentation ceremony was held at Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan. In the ceremony, Sabuhi Ahmadov, the instructor of the Department of History and Archaeology and PhD in History, was conferred an academic title Associate Professor in the speciality "History of Country" on the decision of Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan, dated April 13, 2018. S. Ahmadov is an author of 15 books about military history and heraldry of Azerbaijan as well as 100 scientific articles.

XƏZƏR UNİVERSİTETİNİN MƏZUNU İLAHİYYAT İNSTİTUTUNA REKTOR TƏYİN OLUNDU

KHAZAR UNIVERSITY GRADUATE IS APPOINTED AS RECTOR OF AZERBAIJAN INSTITUTE OF THEOLOGY



Azərbaycan Respublikası Prezidentinin 31 may 2018-ci il tarixli sərəncamı ilə Xəzər Universitetinin magistratura məzunu Ceyhun Məmmədov yeni yaradılmış İlahiyyat İnstitutunun ilk rektoru təyin edilmişdir.

C. Məmmədov 1991-1994-cü illərdə Suriyanın Dəvət və İrşad institutunda, 1994-1998-ci illərdə Liviya Ərəb Sosialist Xalq Cəmahiriyyəsi Universitetində ərəb dili və dinşünaslıq üzrə bakalavr dərəcəsini bitirib. 2000-2002-ci illərdə isə Azərbaycanda Xəzər Universitetinin magistraturasında təhsil alıb.

C. Məmmədov ilahiyyat üzrə fəlsəfə doktorudur və Azərbaycan Dillər Universitetində dərs deyir. 1 kitab, 20 elmi məqalənin müəllifidir.

2001-2014-cü illərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində müxtəlif şöbələrdə çalışıb. 2015-ci ildən rektor təyin olunanadək Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsində böyük məsləhətçi vəzifəsini tutub.

Aşağıdakı linklərdən də əlavə məlumat almaq olar:

http://qafqazinfo.az/news/detail/prezidentin-vezife-verdiyi-yeni-rektor-kimdir-220665

http://tehsil-press.az/index.php?newsid=29943#Kalibri

According to the Order, dated May 31, 2018, by Ilham Aliyev, the President of the Republic of Azerbaijan, Jeyhun Mammadov has been appointed as Rector of the newly founded Azerbaijan Institute of Theology.

J. Mammadov studied in Dawat and Irshad Institute of Syria in 1991-1994. He also got a Bachelor's degree in Arabic Language and Religious studies from Libyan Arab Socialist People's Jamahiriya University in 1994-1998. J. Mammadov studied at Khazar University in 2000-2002 for a Master's degree.

J.Mammadov has a PhD degree in Theology and works as an instructor at Azerbaijan University of Languages. He is the author of one book and twenty scientific articles.

He worked in various departments at State Committee for Work with Religious Organizations of the Republic of Azerbaijan in 2001-2014. He also worked as a senior advisor at the Department of International Relations, Multiculturalism and Religious Affairs of the Presidential Administration.

Links for further information:

http://qafqazinfo.az/news/detail/prezidentin-vezife-verdiyi-yeni-rektor-kimdir-220665

http://tehsil-press.az/index.php?newsid=29943#Kalibri



Mayın 22-də Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyatı departamenti Təhsil fakültəsinin tələbələri ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə "Cümhuriyyət dövrü Azərbaycan ədəbiyyatı" mövzusunda dərs – ithaf keçirdi. Departamentin dosenti Dilbər Zeynalova dərsin əsas məqsədinin Cümhuriyyət məfkurəsinin formalaşmasında ədəbiyyatın böyük əhəmiyyət kəsb etdiyini gənc nəslin nəzərinə çatdırmaq olduğunu vurğuladı. O qeyd etdi ki, cümhuriyyət illərində M.Ə.Rəsulzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ü.Hacıbəyli, Ə.Cavad, C.Cabbarlı və digərlərinin ciddi yaradıcılığı sayəsində ədəbiyyat bütün böyük dəyişikliklərin təməlində duran vasitəyə çevrildi.

Tələbələr M.Ə.Rəsulzadənin "Mayıs duyğuları", Ə.Hüseynzadənin "Hali-vətən", Ə.Cavadın "Mayıs", C.Cabbarlının "Azərbaycan bayrağına", A.İldırımın "Azərbaycan" və s. şeirlərini söylədilər. Dərs tələbələrin ifasında "Çırpınırdı Qara dəniz" manhı-marşı ilə sona çatdı.

On May 22, students of the Faculty of Education and the Department of Azerbaijani Language and Literature, held a special lesson entitled "Azerbaijani literature during the Democratic Republic" which was dedicated to the 100th anniversary of the establishment of the Azerbaijan Democratic Republic. Dilbar Zeynalova, Assoc.Prof of the Department of Azerbaijani Language and Literature, noted that the main aim of the lesson was to enlighten the young generation about the fact that literature had a great influence on the formation of the ideology of Republicanism. She underlined that thanks to M. Razulzade, A. Huseynzade, A .Aghaoghlu, U. Hajibeyli, A. Cavad, C. Cabbarli and others, in addition to being entertainment, literature also functioned as a means leading to great changes. Students recited poems "May feelings" by M.A.Rasulzadeh, "Hali-Vatan" by A.Huseynzadeh, "May" by A. Javad, "The Flag of Azerbaijan" by J. Jabbarli, "Azerbaijan" by A. Ildirim, etc. The lesson ended with song-anthem "Chirpinirdi Gara Deniz" performed by the students.





HUMANİTAR VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİNDƏ YUBİLEY TƏDBİRİ

JUBILEE CELEBRATION IN THE SCHOOL OF HUMANITIES AND SOCIAL SCIENCES

Mayın 23-də Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsi İngilis dili və ədəbiyyatı departamentinin müəllimi Lidiya Həmidovanın anadan olmasının 65 illiyi münasibətilə yubiley tədbiri keçirdi. Tədbirdə fakültə müəllimləri ilə yanaşı, rəhbər işçilər də iştirak edirdilər.

Fakültənin dekanı dosent Cabir Xəlilov yubilyarı təbrik etdi və ona pedaqoji fəaliyyətində yeni uğurlar arzuladı. Universitetin tədris işləri üzrə prorektoru Məhəmməd Nuriyev, Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova, İngilis dili departamentinin baş müəllimi Firəngiz Nəsirova, Məzunlarla iş üzrə koordinator Baba Bayramlı və başqaları çıxış edərək, yubilyar haqqında ürək sözlərini söylədilər.

Sonda L. Həmidova belə bir tədbirin təşkilinə və xoş sözlərə görə iştirakçılara öz dərin minnətdarlığını bildirdi.

On May 23, Lydia Gamidova's, an instructor of the Department of English Language and Literature, the Faculty of Humanities and Social Sciences of Khazar University, 65th jubilee was held. Along with the department instructors, university administration participated at the event. First, Jabir Khalilov, Dean of the Department, congratulated Lydia Gamidova and wished her success in her career. Then Mahammad Nuriyev, Vice-rector for Education of Khazar University, Roza Arazova, Head of the Department of History and Archaeology, Firangiz Nasirova, Senior teacher of the Department of English Language and Literature, Baba Bayramli, Director of the Center for Alumni Relations and others congratulated Lydia Gamidova.

At the end, Lydia Gamidova expressed her gratitude for the event and wishes.



KHAZAR UNIVERSITY

SERTİFİKAT

Mustafa Qasımov Kənan

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə
həsr olunmuş III "Tələbələrarası Məntiq Olimpiadası"nda
I yer tutmuş və Xəzər Universitetində MBA üzrə 2 illik ödənişsiz
təhsil almaq hüququ əldə etmişdir.

Dr. Hassan Niknafs
Rector

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR EDİLMİŞ III TƏLƏBƏLƏRARASI MƏNTİQ OLİMPİADASI

III STUDENT LOGIC OLYMPIAD DEDICATED TO THE 100TH ANNIVERSARY OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

Mayın 23-də Park Inn otelində Kainat Tədris Mərkəzinin və ATGTİ-nin birgə layihəsi olan III Tələbələrarası Məntiq Olimpiadasının qaliblərinin mükafatlandırma mərasimi keçirildi. Tədbirdə final mərhələsinə keçən 214 nəfər tələbə, baş sponsor "Veysəloğlu Qrup" şirkəti, sponsor "Odda Cafe" və akademik sponsor Xəzər Universitetinin nümayəndələri iştirak edirdilər.

Xəzər Universitetini təmsil edən professor Fuat Rəsulov ilk olaraq, olimpiadada qalib olan bütün tələbələri, onların valideynlərini və müəllimlərini təbrik etdi.

Sonda mükafatlandırma mərasimində ilk 10 qalibə sponsorlar tərəfindən müxtəlif qiymətli hədiyyələr (İPHONE X telefonu, notebook, planşet və s.) verildi. Olimpiadanın qalibi –1-ci yerin sahibi Mustafa Qasımova isə ən qiymətli mükafat–Xəzər Universitetinin MBA proqramı üzrə magistraturasında ödənişsiz təhsil almə hüququnu təsdiqləyən xüsusi sertifikat təqdim edildi.

Bu haqda aşağıdakı linklər vasitəsilə daha geniş məlumat almaq olar:

https://az.trend.az/azerbaijan/society/2907798.html; http://son.az/az/news/374497/veyseloglu-grup-unbas-sponsorlugu-ile-kecirilen-mentiq-olimpiadasinin-qalibleri-mukafatlandirildi-foto

On May 23, at Park Inn hotel in Baku, the awarding ceremony of the winners of the III Student Logic Olympiad, a joint project of Kainat Education Centre and Azerbaijan Student Youth Organizations Union, was held. The event was attended by 214 students, Veysaloghlu, general sponsor, "Odda Cafe", sponsor, and Khazar University, academic sponsor.

Prof. Fuat Rasulov, a representative of Khazar University, congratulated all the winners, their parents and teachers. At the end of the awarding ceremony, the first 10 winners were awarded various valuable gifts (iPhone X phones, notebooks, tablets, etc.) by sponsors.

The winner of the Olympiad, Mustafa Gasimov, was awarded the most valuable prize, a special certificate certifying the right of free education in MBA program at Khazar University.

Further information is available in the following links:

https://az.trend.az/azerbaijan/society/2907798.html; http://son.az/az/news/374497/veyseloglu-grup-unbas-sponsorlugu-ile-kecirilen-mentiq-olimpiadasinin-qalibleri-mukafatlandirildi-foto



TƏLƏBƏLƏR MÜZAKİRƏ KEÇİRDİLƏR

Mayın 19-dan 23-dək Xəzər Universitetinin Mərkəz kampusunda universitetin əksər fakültələrindən ingilis dili üzrə "Foundations" təhsili alan tələbələr müzakirələr keçirdilər. Müzakirə üçün mövzuların onların təklifinə əsasən seçilməsi tədbirin daha fəal keçməsinə şərait yaratdı.

Müzakirələrdə tələbələr auditoriya qarşısında sərbəst çıxış etmək, tənqidi fikir söyləmək və inandırıcı arqumentlərdən istifadə etmək imkanı əldə etdilər. Müzakirə iştirakçılarına nə çap materiallarından və nə də innovativ resurslardan istifadə etməyə icazə verilmirdi. İngilis dili müəllimləri isə prosesi müşahidə edir və daha çox tələbənin müzakirələrdə iştirakını təmin edirdilər.

Tələbələr bu mövzular ətrafında müzakirə apardılar: *İnkişaf hər zaman yaxşıdırmı? Pul bütün pisliklərin mənbəyidirmi? Kompüterlər müəllimləri əvəz edə bilərmi? Şəhərdə, yaxud kənddə yaşamaq daha yaxşıdır? Nə daha önəmlidir: sevgi, yoxsa pul?*

STUDENTS HELD DISCUSSIONS

On May 19-23, classroom debates for English Foundations students were held in the Downtown campus of Khazar University. Most groups of all schools of the University took part in the debates. The students themselves helped a lot by suggesting a number of topics for discussions. So, they did research and were asked to vote for topics in advance. That helped to get them more engaged in the activity. Thus, all students were given a chance to speak up without fear in public, demonstrate their critical thinking skills and persuasive argument techniques. The debaters were not allowed either to read from papers or use any innovative tools during the discussions. Their English instructors just observed and helped run a large number of students.

Here is the list of the debate topics that students discussed: *Is progress always good? Is money the root of all evil? Can computers replace teachers? Is it better to live in the city (in the country)? What is more important: love or money?*









AZƏRBAYCAN
XALQ CÜMHURİYYƏTİ
100
1918 2018

"AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNDƏ DİL MƏSƏLƏSİ" MÖVZUSUNDA SEMİNAR

SEMINAR ON "LANGUAGE ISSUES IN THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC"

Mayın 24-də Xəzər Universiteti Dillər və mədəniyyətlər departamentinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə "Azərbaycan Xalq Cümhuriyyətində dil məsələsi" mövzusunda seminar keçirildi. Seminarda AMEA "Türkologiya" jurnalının məsul katibi, filologiya üzrə fəlsəfə doktoru Elçin İbrahimov "Azərbaycan Xalq Cümhuriyyəti dönəmində dil məsələsi" mövzusunda dinləyicilərə dolğun məlumatlar verdi.

Çıxışdan sonra müzakirələrdə Dillər və mədəniyyətlər kafedrasının koordinatoru dosent Ziyər Hüseynli-Baylan, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi işçisi, Xəzər Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Xatirə Yusifova və AMEA Nəsimi adına Dilçilik İnstitutunun Təhsil şöbəsinin müdiri, Xəzər Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru Qətibə Quliyeva iştirak etdilər.

Sonda mövzu haqqında tələbələrin sualları cavablandırıldı.

On May 24, on the organizational support of the Department of Languages and Cultures of Khazar University, a seminar on "Language issues in the Azerbaijan Democratic Republic" was held on the occasion of the 100th anniversary of the establishment of the Azerbaijan Democratic Republic. In the seminar, Elchin Ibrahimov, PhD in Philology and executive secretary of the journal "Turkish Studies" of Presidium of the Azerbaijan National Academy of Sciences, enlightened the participants about the topic entitled "Language issues in the Azerbaijan Democratic Republic". Assoc. Prof. Ziyar Huseynli-Bayla, coordinator of the Department of Languages and Cultures, Khatira Yusifova, researcher of Institute of Manuscripts named after M.Fuzuli of ANAS and instructor of Khazar University, as well as Gatiba Guliyeva, senior researcher of Institute of Linguistics named after Nasimi of ANAS, Head of the Department of Education of the same Institute and instructor of Khazar University, participated in the discussion part of the seminar.

At the end, students got answers to their questions.

"KOREYA KİNO GÜNÜ" TƏŞKİL OLUNDU



Mayın 24-də Xəzər Universiteti Dillər və mədəniyyətlər departamenti tərəfindən "Koreya kino günü" adlı tədbir təşkil olundu. Xarici və yerli qonaqların, habelə tələbələrin iştirak etdiyi bu tədbirdə departamentin Koreya dili müəllimi Könül Kamilzadənin təşkilatçılığı ilə "Coqqi kralı" adlı Koreya filmi nümayiş etdirildi.

Koreya səfirliyi tərəfindən bir qrup tələbəyə hədiyyə təqdim olundu.

"KOREAN CINEMA DAY" ORGANIZED

On May 24, the Department of Languages and Cultures of Khazar University organized an event "Korean Cinema Day" which was attended by national and international guests as well as students. A Korean movie "The King of Joggy" was played on organizational support by Konul Kamilzadeh, Korean language instructor of the department.

Some students were awarded by the ambassador of Korean embassy.

XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ MÜKAFAT ALDI

Mayın 25-də Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və AMEA-nın təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş "Azərbaycan Cümhuriyyəti-100" adlı elmi əsərlərin müsabiqəsinə yekun vuruldu.

Xəzər Universitetinin II kurs magistrantı Zeynəb Həcəmova "Ürəklərdə alovlanan azadlıq məşəli" adlı məqaləsinə görə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix - Memarlıq Qoruğu İdarəsinin sədri və Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti tərəfindən imzalanmış sertifikat, kitab və digər mükafatlarla təltif olundu.

KHAZAR UNIVERSITY STUDENT IS REWARDED

On May 25, on the organizational support of Administration of State Historical - Architectural Reserve "Icherisheher" under Cabinet of Ministries of Azerbaijan and ANAS, a competition for scientific works entitled "The Azerbaijan Democratic Republic-100" dedicated to 100th anniversary of the Azerbaijan Democratic Republic, was over.

The article entitled "A flame of freedom burning in hearts" by Zeynab Hajamova, 2nd year Master's student at Khazar University was considered a successful article. The author was rewarded with a certificate, signed by Head of Administration of State Historical-Architectural Reserve "Icherisheher" under Cabinet of Ministres of Azerbaijan and President of Azerbaijan National Academy of Sciences, as well as a book and other awards.





NİYAL HAZIRLIQ KURSLARININ MÜƏLLİM VƏ ŞAGİRDLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Mayın 30-da İsmayıllıda yerləşən Niyal Hazırlıq kurslarının X və XI sinif şagirdləri Xəzər Universitetində oldular. Öncə toplantı salonunda universitet rəhbərliyi ilə şagirdlərin və onların müəllimlərinin görüşü keçirildi. Görüşü İctimai əlaqələr və media üzrə direktor Ələvsət Əmirbəyli açaraq, salondakıları salamladı və universitetin İsmayıllı Niyal Hazırlıq kursları ilə əlaqələrindən danışdı.

Universitetin Tədris işləri üzrə prorektoru Məhəmməd Nuruyev, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini Fəxrəndə Əlimərdanova, İngilis dili və ədəbiyyatı departamentinin proqram koordinatoru Milana Abbasova, Psixologiya departamentinin koordinatoru Mələk Kərimova və digər əməkdaşlar Xəzər Universitetinin ixtisasları haqqında geniş məlumat verdilər. Sonra İsmayıllıdan gələn qonaqlar professor Fuat Rəsulovun rəhbərliyi ilə Xəzər Universitetindəki laboratoriyalar, sinif otaqları, kitabxanalar, institutlarla tanış oldular, universitetin Mərkəz kampusuna və "Dünya" məktəbinə səfər etdilər. Qonaqlar günorta yeməyindən sonra Bakı şəhərinin görməli yerləri ilə də tanış oldular, xatirə şəkilləri çəkdirdilər. Sonra Xəzər Universitetinə məxsus avtobusla İsmayıllıya yola düşdülər.

Niyal Hazırlıq kurslarının rəhbəri Həsən Rəhimov Xəzər Universitetinə təşəkkür məktubu göndərmişdir.









TEACHERS AND STUDENTS OF NIYAL TUTORING CENTRE VISIT KHAZAR UNIVERSITY

On May 30, students of X and XI grades of Niyal Tutoring centre, located in Ismayilli, visited Khazar University. Firstly, teachers and students met with University administration in the meeting hall. Alovsat Amirbeyli, Director for Public Relations and Media, opened the meeting and talked about the relations between the University and Niyal Tutoring centre. Mahammad Nuriyev, Vice-rector for Academic Affairs, Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences, Jeyhun Mammadov, Dean of the School of Economics and Management, Fakhranda Alimardanova, Vice-dean of the School of Engineering and Applied Sciences, Milana Abbasova, Programs Coordinator at the Department of English Language, Malak Karimova, Coordinator of the Department of Psychology, and other associates of the University informed the guests about specialties offered by Khazar University. Then under Prof. Fuat Rasulov's guidance, the guests became acquainted with laboratories, classrooms, libraries and visited the University campus in the city center and "Dunya" school. After dinner, the guests went sightseeing in Baku and had memory photos taken.

The guests went back to Ismayilli by Khazar University bus. Hasan Rahimov, Head of Niyal Tutoring centre, sent a letter of gratitude to Khazar University.





TƏHSİL FAKÜLTƏSİNİN TƏLƏBƏSİ 3-CÜ YERİ TUTDU

A STUDENT OF THE SCHOOL OF EDUCATION TAKES THE 3RD PLACE

Mayın 24-də Xəzər Universitetində TRİZ Kuboku Beynəlxalq İxtiraçılar müsabiqəsinin nümayəndə heyəti ilə Mühəndislik və tətbiqi elmlər və Təhsil fakültələrinin müəllim və tələbələri arasında görüş keçirildi.

Qeyd edək ki, görkəmli ixtiraçı Genrix Altşuler Sauloviç XX əsrin 70-ci illərində dünyada birinci dəfə Bakıda təşkil edilmiş İxtiraçılıq İnstitutunun təsisçisi olmuş və İxtira üzrə məsələlərin həlli nəzəriyyəsinin (TRİZ) müəllifidir. 2016-cı ildə Genrix Altşulerin Bakıda yubileyi keçirilmiş, ölkə tələbə və şagirdlərinin TRİZ Kuboku Beynəlxalq müsabiqəsində iştirak etməyi təklif olunmuşdu. 2017-ci ildə Azərbaycan tələbə və şagirdləri bu müsabiqədə iştirak etmiş və xüsusi diplomlarla təltif edilmişdilər.

Bu il Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər və Təhsil fakültələrinin iki tələbəsi "TRİZ Kuboku 2018" Beynəlxalq İxtiraçılar müsabiqəsində iştirak etdi, Təhsil fakültəsinin tələbəsi Aytac Salmanzadə "Fantaziya" nominasiyası üzrə 3-cü yerə layiq görüldü. TRİZ Kuboku Beynəlxalq İxtiraçılar müsabiqəsinin Bakı üzrə rəhbəri Natiq Əliyev (Direktor, NG Creators Club) qalib tələbəyə sertifikat təqdim etdi. Tədbirdə iştirak edən müsabiqənin nümayəndə heyətinin üzvləri Aleksandr Xakimov (yazıçı-fantast) və Rüstəm Hüseynov (Art-direktor) qalib tələbəni təbrik etdilər və digər tələbələri də növbəti illərdə bu müsabiqədə iştirak etməyə çağırdılar.

Sonda tələbələrlə bu müsabiqənin Xəzər Universiteti üzrə komanda heyətinin yaradılması ətrafında müzakirələr aparıldı.

Qeyd edək ki, iyunun 7-də TRIZ İxtiraçılar sammitinin həmtəsisçisi Mixail Semyonoviç Rubin Xəzər Universitetinə TRIZ təlimlərinin təşkili sahəsində əməkdaşlıq təklifi ilə bağlı məktub göndərmişdir.

On May 25, delegates of TRIZ Cup International Inventors Competition met with instructors and students of the School of Education and the School of Engineering and Applied Sciences.

Altshuler Herich Saulavich, a prominent inventor, was the founder of Institute of Invention which was founded first time in Baku in the 70s of XX century. He was also the author of the theory of the resolution of invention-related tasks (TRIZ). Herich Saulavich's anniversary was held in Baku in 2016. In the anniversary ceremony, it was suggested pupils and students of Azerbaijan should participate in TRIZ Cup International Competition. In 2017, Azerbaijani pupils and students participated in this competition and were awarded special diplomas.

Two students of the School of Engineering and Applied Sciences and the School of Education of Khazar University, participated in TRIZ Cup 2018 International Competition this year. Aytaj Salmanzadeh, the student of the School of Education, took the third place in "Fantasy" nomination. Namig Aliyev, Director of TRIZ Cup International Competition for Baku, presented the winner with a Certificate. Aleksandr Khakimov (fantasy writer) and Rustam Huseynov (Art director), members of the competition delegation, congratulated the winner and encouraged other students to join the competition in the following years.

Then students discussed the establishment of the team of Khazar University for participation in the competition.

It should be noted that on June 7 the co-founder of TRIZ Inventors' Summit Michael Semyonovich Rubin sent a letter to Khazar University proposing cooperation in organization of TRIZ trainings.





PRİNSTON UNİVERSİTETİNİN PROFESSORU XƏZƏR UNİVERSİTETİNDƏ MÜHAZİRƏ OXUDU

PROFESSORS OF PRINCETON UNIVERSITY DELIVERS A LECTURE AT KHAZAR UNIVERSITY

Mayın 25-də Prinston Universitetinin Yaxın Şərq Tədqiqatları üzrə dosenti Maykl A.Reynoldz Xəzər Universitetində "Azərbaycan demokratiyasının qlobal kontekstdə meydana çıxması" mövzusunda mühazirə oxudu. Dr. Maykl Reynoldz Prinston Universitetində doktorluq dərəcəsi, Kolumbiya Universitetində siyasi elmlər üzrə magistr dərəcəsi və Harvard Universitetində idarəçilik və slavyan dilləri üzrə bakalavr dərəcəsi almışdır. Dr. Maykl Reynoldz "Sarsılan imperiyalar: Osmanlı və Rusiya imperiyalarının toqquşması və süqutu, 1908-1918" kitabının (Kembric Universiteti Nəşriyyatı, 2011) müəllifidir. O, Amerika Tarix Assosiasiyasının "George Louis Beer Prize" mükafatına, elecə də "Choice Mötəbət Titullar" mükafatına layiq görülmüşdür. Dr. Maykl Reynoldz "Qafqazın tikilileri: imperiyalar, xalqlar və inamlar" kitabının redaktorudur (Markus Weiner, 2015).

Mühazirədə Siyasi elm və beynəlxalq əlaqələr departamentinin tələbələri və müəllimləri iştirak edirdilər. Mühazirənin sonunda iştirakçıların sualları cavablandırıldı.

On May 25, Khazar University hosted a lecturer from Princeton University on its Neftchilar campus.

Michael A. Reynolds, Associate Professor of Near Eastern Studies at Princeton University, delivered a lecture entitled "The Birth of Azerbaijani Democracy in its Global Context." Dr. Michael Reynolds holds a PhD in Near Eastern Studies from Princeton, an MA in Political Science from Columbia, and a BA in Government and Slavic Languages from Harvard. He is the author of Shattering Empires: The Clash and Collapse of the Ottoman and Russian Empires, 1908-1918 (Cambridge University Press, 2011), a recipient of the American Historical Association's George Louis Beer Prize, a Choice outstanding title, and a Financial Times book of the summer, and editor of Constellations of the Caucasus: Empires, Peoples, and Faiths (Markus Weiner, 2015).

The lecture which was attended by the students and staff of Political Science and International Relations department ended with a Q&A session.







AZƏRBAYCAN
XALQ CÜMHURİYYƏTİ

1918 2018

"AZƏRBAYCAN TARİXİ" DƏRSİ AXC-NİN 100 İLLİYİNƏ HƏSR EDİLDİ

THE LESSON OF "HISTORY OF AZERBAIJAN" IS DEDICATED TO THE 100TH ANNIVERSARY OF THE ADR

Mayın 25-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi Xaqan Balayevin tədris etdiyi "Azərbaycan tarixi" dərsində Təhsil fakültəsinin C qrupunun tələbələri AXC-nin 100 illiyi ilə bağlı hazırladıqları təqdimatlarla çıxış etdilər. AXC-nin dövlət xadimləri haqqında hazırlanan təqdimatlar slaydlar göstərilməklə nümayiş etdirildi.

Tələbələrdən Aysel Qocayeva M.Ə.Rəsulzadə, Fidan Zeynalova F.X.Xoyski, Tərənə Mansurova Ə.Topçubaşov, Seyran Məmmədova Y. V. Çəmənzəminli və Aysel Süleymanlının S.Mehmandarov haqqında təqdimatları maraqla qarşılandı.

On May 25, in the lesson of "History of Azerbaijan" instructed by Khagan Balayev, the instructor of the Department of History and Archaeology of Khazar University, students of the group C of the School of Education made a presentation about the ADR on the occasion of the anniversary of the ADR. The presentations included slides about state figures of the ADR.

The students made interesting presentations on the following persons: Aysel Gojayeva – M.A.Rasulzadeh, Fidan Zeynalova – F.Kh.Khoyski, Tarana Mansurova – A.Topchubashov, Seyran Mammadova – Y. Chamanzaminli, Zeynal Suleymanli – S.Mehmandarov.



"XƏZƏR"LİLƏRİN İŞTİRAKI İLƏ SÖHRAB TAHİRİN ANIM MƏRASİMİ KEÇİRİLDİ

SOHRAB TAHIR IS COMMEMORATED BY "KHAZAR"

Mayın 27-də "Dünyaya yayılsın birlik harayım!" - deyən xalq şairi Söhrab Tahirin doğum günü münasibətilə anım mərasimi keçirildi. Tədbir iştirakçıları II Fəxri xiyabana gələrək, şairin xatirəsini yad etdilər.

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlı anım mərasimini açaraq, onun həyatı və fəaliyyəti haqda danışdı.

Xəzər Universitetinin tələbələri - gənc filoloqlar Pinar Məmmədzadə, Aytac Həsənova, Səkinə Ələkbərli, Nəzrin İsmayılova şairin xatirəsinə ehtiramlarını bildirdilər.

Tədbirdə iştirak edən şairin qızı Nəsibə Tahiri Söhrab Tahirin ömrünün son aylarınadək gənclik enerjisi ilə yaşayıb-yaratmasından söz açdı, şairin xatirəsini yad etdikləri üçün mərasim iştirakçılarına minnətdarlığını bildirdi.

On May 27, 2018, a commemoration day for Sohrab Tahir, People's Poet who declared "Let my voice spread around the world", was held on the occasion of his anniversary. Participants of the event visited the 2nd Alley of Honor in remembrance of the poet.

Gardashkhan Azizkhanli, the instructor of the Department of Azerbaijani Language and Literature, Khazar University, opened the commemoration ceremony and talked about Sohrab Tahir's life and career.

Pinar Mammadzadeh, Aytaj Hasanova, Sakina Alakbarli, Nazrin Ismayilova, young philologists and students of Khazar University, expressed their respect for the memory of the poet.

Nasiba Tahiri, the daughter of the poet, stressed how Sohrab Tahir worked with youngish enthusiasm until his death. She also thanked the participants for the commemoration of the poet.





NÖVBƏTİ KARYERA SƏRGİSİ

Mayın 29-da Xəzər Universitetində Karyera mərkəzinin təşəbbüsü ilə ənənəvi olaraq hər il keçirilən Karyera sərgisi təşkil olundu. Karyera sərgisinin keçirilməsinin əsas məqsədi tələbə və məzunların iş həyatına inteqrasiya prosesini dəstəkləyərək, onları mövcud bazarın aparıcı şirkətləri ilə tanış etməkdir. Tədbir "Baker Tilly" şirkətinin xüsusi dəstəyi ilə həyata keçirildi. Sərgidə Amerika səfirliyi də daxil olmaqla, 24 şirkətin nümayəndələri iştirak edirdilər.

Xəzər Universitetinin Tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev çıxış edərək, Karyera Sərgisini açıq elan etdi. O, öz çıxışında sponsorluğa görə "Baker Tilly" şirkətinə və digər iştirakçı şirkətlərə təşəkkürünü bildirdi.

Tədbirə Xəzər Universitetinin tələbələri, məzunları, həmçinin digər universitetlərin tələbələri qatılmışdılar. Onlar şirkət nümayəndələrinə öz CV-lərini təqdim edərək, mövcud vakansiyalarla tanış olmaq imkanı əldə etdilər. İştirak edən tələbələrə Karyera mərkəzi tərəfindən tədbirin materialları təqdim olundu.

Sonda Karyera mərkəzinin meneceri Səbinə Allahverənova tədbirdə iştirak edənlərə öz təşəkkürünü bildirdi.

NEXT CAREER FAIR TAKES PLACE

On May 29, on the initiatives of Career Center of Khazar University, a traditional Career Fair was held. The main aim of the fair was to support the integration process of students into business life and make them familiar with leading companies of the labour market. The fair was held with special support of "Baker Tilly" company. Representatives of 24 companies, including the USA embassy, joined the fair.

Prof. Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs, delivered an opening speech at the fair and expressed his gratitude to "Baker Tilly" and other companies for sponsorship.

Students and graduates of Khazar University, as well as associates of other universities, joined the fair. Participants had the chance to submit their CV to companies and get information about current vacancies. The participants were provided with promo materials of the fair by Career Centre.

Sabina Allahverdanova, Manager of Career Center, thanked the participants for active participation at the fair










Gilan Holding





"XƏZƏR"İN ƏMƏKDAŞLARI ÖLKƏ VƏ XARİCİ SİMPOZİUMLARDA

KHAZAR UNIVERSITY STAFF AT LOCAL AND INTERNATIONAL SYMPOSIUMS

***

Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov mayın 12-də Bakı şəhərində keçirilən "Daxili suların problemlərinin öyrənilməsi" adlı elmi konfransda "*Elektrik enerjisi istehsal edən su anbarlarının ekosistem servislərinin qiymətləndirilməsi*" mövzusunda çıxış etdi.

On May 12, Rovshan Abbasov, Head of the Department of Geography and the Environment, participated in a conference on "Understanding problems of Inland Waters" held in Baku with a report entitled *"Assessment of Ecosystem Services of dams/reservoirs connected to Hydropower Generation"*.



Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov mayın 22-25 - də Malayziyanın Kuala Lumpur şəhərində Təbii Fəlakətlər üzrə Qlobal Şəbəkənin keçirdiyi Qlobal Sammitində iştirak etdi.

On May 22-25, Rovshan Abbasov, Head of the Department of Geography and the Environment, participated in a Global Summit, organized by Global Network on Disaster Risk Reduction, held in Kuala Lumpur, Malaysia.

***

Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Qardaşxan Əzizxanlı Azərbaycan Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə may ayının 14-15-də keçirilən "Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri"nə həsr olunmuş Beynəlxalq elmi konfransda iştirak edərək, "Məmməd Araz poeziyasında Bütöv Azərbaycan ideyasının poetik tərənnümü" mövzusunda çıxış etmişdir.

Gardashkhan Azizkhanli, instructor of the Department of Azerbaijani Language and Literature, School of Education of Khazar University, participated in the international scientific conference entitled "Sustainable development and actual problems of humanities", held on May 14-15, which was dedicated to 95th anniversary of National Leader, Heydar Aliyev. In the conference, Gardashkhan Azizkhanli delivered a report entitled "Poetic praise of the idea of United Azerbaijan in Mammad Araz's poetry".

***

***

Mayın 21-dən 23-dək Bakı Dövlət Universitetində Qafqaz Müsəlmanları İdarəsi ilə birgə təşkil olunmuş "Azərbaycan Xalq Cümhuriyyəti-100: Müsəlman Şərqində ilk parlamentli respublika" adlı beynəlxalq elmi konfrans keçirildi. ABŞ, Türkiyə, Qazaxıstan, Özbəkistan, Rusiya, Gürcüstan, Moldova, Küveyt, Polşa və digər ölkələrdən 70-dək elm adamının qatıldığı konfransın açılış mərasimində xarici ölkələrin tanınmış alimləri ilə yanaşı, Azərbaycanın elm və təhsil ictimaiyyətinin nümayəndələri, Milli Məclisin deputatları, dövlət və hökumət rəsmiləri iştirak edirdilər. Konfransda Xəzər Universitetini **Dillər və mədəniyyətlər departamentinin koordinatoru f.ü.f.d. dosent Zivər Hüseynli-Baylan** təmsil edirdi. O, "Azərbaycan Xalq Cümhuriyyəti mətbuatında ermənilərin törətdikləri soyqırımlarının işıqlandırılması" mövzusu ilə çıxış etdi.

Konfransın sonunda hər bir məruzəçiyə iştirak sertifikatı və tezislər kitabı təqdim olundu.

On May 21-23, an international scientific conference entitled "Azerbaijan Democratic Republic-100: The first parliamentary republic in the Muslim East" was held at Baku State University with the support of Caucasian Muslims Office. About 70 scholars from the USA, Turkey, Kazakhstan, Uzbekistan, Russia, Georgia, Moldova, Kuwait, and Poland participated at the conference. Moreover, figures of the scientific and educational community, members of parliament as well as state and government officials joined the conference. Khazar University was represented by **Assoc. Prof. Zivar Huseynli-Baylan, a coordinator of the Department of Languages and Cultures.** She delivered a report entitled "Coverage of the genocide committed by the Armenians in the press of the Azerbaijan Democratic Republic".

At the end of the conference, each participant was certified and provided with a book of proceedings.

***

AZƏRBAYCAN
XALQ CÜMHURİYYƏTİ
100
1918 2018

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərin Problemləri üzrə Elmi Araşdırmalar Mərkəzi 2018-ci il mayın 23-də Beynəlxalq Mətbuat Mərkəzində AXC-nin 100 illiyinə həsr olunmuş konfrans keçirmişdir. Konfransda Araşdırma Mərkəzinin, ali məktəblərin, QHT-lərin əməkdaşları, ictimaiyyət nümayəndələri və media mənsubları iştirak etmişlər.

Konfransda tarixçi alimlər – Milli Məclisin üzvü, professor Fəzail İbrahimli, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, dosent Firdovsiyyə Əhmədova, tarix elmləri doktoru Vaqif Alışov və digərlərinin müxtəlif mövzularda məruzələri dinlənilib, müzakirə olunmuşdur.

Konfransda Xəzər Universiteti "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev iştirak etmişdir.

On May 23, 2018, Scientific Research Center for Youth Problems of the Ministry of Youth and Sport of the Republic of Azerbaijan, held a conference dedicated to 100th anniversary of the Azerbaijan Democratic Republic at International Press Center. Associates of the Center, universities, NGOs as well as public figures and members of the media participated at the conference.

Prof. Fazail Ibrahimli, a member of Parliament, Assoc. Prof. Firdovsiyya Ahmedova, Head of the Department of the Academy of Public Administration under the President of the Republic of Azerbaijan, Vagif Alishov, PhD in Historical Sciences and others delivered reports on various topics.

Khazar University was represented by honoured journalist Alirza Balayev, deputy editor-in-chief of "Khazar Review" journal.

***



"XƏZƏR"İN ƏMƏKDAŞLARI "100-CÜ İLİNDƏ AZƏRBAYCAN CÜMHURİYYƏTİ" ADLI BEYNƏLXALQ KONQRESDƏ

ASSOCIATES OF KHAZAR UNIVERSITY AT THE INTERNATIONAL CONGRESS "THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC IN 100TH ANNIVERSARY"

Mayın 26-27 - də Azərbaycan dili və ədəbiyyatı departamentinin dosentləri Vurğun Əyyub, Elza Səmədli və Qətibə Mahmudova Əskişəhər Azərbaycanlılar Dərnəyi və Anadolu Universiteti Türk Dünyası Tətbiq və Araşdırma Mərkəzinin (TÜDAM) Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100-cü ildönümü münasibətilə hazırladığı "100-cü ilində Azərbaycan Cümhuriyyəti" adlı beynəlxalq konqresdə iştirak etdilər. (Dosent Vurğun Əyyub və dosent Elza Səmədli həm də konqresin Bilim Kurumunun üzvləri idilər). Vurğun Əyyubun "Cümhuriyyət yazarlarımızdan Hüseyn Cavidin yaradıcılığı və "Sərvəti-Fünun", Elza Səmədlinin "Cümhuriyyət dövrü aydınlarından Üzeyir Hacıbəyli və Qori Seminariyasına tənqidləri", Qətibə Mahmudovanın "Türkiyə ədəbiyyatında Azərbaycan Demokratik Cümhuriyyəti: bir əsər üzərində tədqiqat" adlı məruzələri dinləyicilər tərəfindən maraqla qarşılandı.

Konfransda Azərbaycandan professor Bədirxan Əhmədli də iştirak edirdi.

Mayın 28-də Xəzər Universitetinin təmsilçiləri Ankarada Azərbaycan Cümhuriyyətinin qurucusu M.Ə.Rəsulzadənin və Mustafa Kamal Atatürkün məzarlarını ziyarət etdilər.

On May 26-27, Vurghun Ayyub, Elza Samadli and Gatiba Mahmudiva - Associate Professors of the Department of Azerbaijani Language and Literature of Khazar University, participated in the international Congress "The Azerbaijan Democratic Republic in its 100th anniversary", jointly organized by Association of Azerbaijanis of Eskisehir and Turkish World Center for Application and Research at Anadolu University, on the occasion of 100th anniversary of The Azerbaijan Democratic Republic. At the same time, Vurghun Ayyub and Elza Samadli were the members of Science Committee of the Congress. Associates of the University made reports on the following reports: Vurghun Ayyub – "Huseyn Javid's Creativity and "Sarvati-Funun"; Elza Samadli – "Uzeyir Hajibayli, one of the intellectuals of the Democratic Republic, and his critics on Gori Seminary"; Gatiba Mahmudova – "The Azerbaijan Democratic Republic in the Turkish literature: a research on a work".

Professor Badirkhan Ahmadly from Azerbaijan took part in the conference.

On May 28, associates of Khazar University visited M.A.Rasulzadeh's and Mustafa Kamal Ataturk's graves in Ankara.





AVROPA PARLAMENTİNİN SİMULYASİYASI

SIMULATION GAME OF THE EUROPEAN PARLIAMENT

PEER to PEER
START Project

Mayın 30-da "Peer to Peer: Facebook Global Digital Challenge" layihəsi çərçivəsində İqtisadiyyat və menecment departamentinin koordinatoru Dr. Bahadır Baysal və Xəzər Universitetinin "THE SAME" komandasının təşkilatçılığı ilə Avropa Parlamentinin simulyasiyası keçirilmişdir.

Simulyasiya oyununun əvvəlində Siyasi elm və beynəlxalq əlaqələr departamentinin koordinatoru Elmar Mustafayev "Avropa Parlamentində miqrasiya və qaçqınlıq böhranının həlli" mövzusunda mühazirə söyləyib.

Sonra iştirakçılar dörd siyasi qrupa bölünərək, miqrasiya böhranının həlli üzrə öz proqramlarını təqdim etdikdən sonra sualları cavablandırdılar.

Simulyasiya oyununun sonunda tələbələr "THE SAME" komandasının sertifikatı ilə təltif edildilər.

On May 30, simulation game of the European Parliament was organized by Dr. Bahadir Baysal, Coordinator of the Department of Economics and Management and "THE SAME" team of Khazar University within the framework of Peer to Peer: Facebook Global Digital Challenge.

At the beginning of the simulation game, Elmar Mustafayev, Coordinator of Political Science and International Relations Department of Khazar University delivered a lecture on "Solutions of Migration and Refugees Crisis at the European Parliament".

At the second session, the participants were divided into four political groups, and presented their programmes on solution of migration crisis, answered the questions of other political groups.

At the end of the simulation game, the students were awarded with certificates by "THE SAME" team.

"XƏZƏR"İN ƏMƏKDAŞLARININ MƏQALƏLƏRİ ÖLKƏDƏ VƏ XARİCDƏ ÇAP OLUNUB

KHAZAR UNIVERSITY STAFF PUBLISH ARTICLES IN THE COUNTRY AND ABROAD

***



Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Validə Kərimovanın (doktorant) **"N.Çomskinin sintaktik təlimində dil səriştəsi və dildən istifadə" adlı elmi məqaləsi Sumqayıt Dövlət Universitetinin "Sosial və Humanitar elmlər bölməsi" jurnalının 2018-ci il 1-ci sayında çap edilmişdir.**

Məqalədə Amerika dilçisi, filosofu və ictimai xadimi N.Çomskinin sintaktik konsepsiyasının əsas istiqamətləri, dilçilik görüşlərinin mahiyyəti, sintaktik struktur, dil səriştəsi, dildən istifadə qaydaları və müasir dilçilikdə sintaksis istiqamətində apardığı tədqiqatlar və elmə gətirdiyi yeniliklər geniş formada araşdırılaraq, oxucuya çatdırılmışdır.

An article "N. Chomsky's language skills and language use in syntactic learning" by Validə Karimova, Vice-dean of the School of Humanities and Social Sciences, has been published in "Social and Humanities" journal, the first issue for 2018, of Sumgait State University. The journal is included in Periodical Scientific Publications of the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan. The article deals with main components of syntactic concepts proposed by N.Chomsky, an American linguist, philosopher and public feature, as well as syntactic structure, language skills, language use and syntax in modern linguistics.

***

İngilis dili və ədəbiyyatı departamentinin müəllimi İlham Tağıyevin "Struktur-sintaktik ikimənalılıq və supra-seqmental vasitələr" başlıqlı məqaləsi Rusiyada çıxan "Philology" jurnalının 15-ci sayında nəşr edilmişdir. Müəllif diqqəti şifahi nitq ilə yazılı mətn arasındakı fərqə yönəldərək, qeyd edir ki, məqalədə təhlil edilən hallarda ikimənalılıq şifahi nitqdə deyil, yalnız yazılı mətndə mövcud ola bilər, çünki sonuncu supra-seqmental vasitələrdən məhrumdur.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

http://sciphilology.ru/d/1076213/d/philology_no_3_15_may.pdf

An article entitled *"Structural-Syntactic Ambiguity and Supra-Segmental Means"* by Ilham Taghiyev, a lecturer of English Language and Literature Department, was published in the 15th issue of the international scientific journal "Philology" in Russia. The author draws attention to the gap between oral human speech and written text and states that ambiguity in the analyzed cases can exist only in the written version of human speech due to the lack of supra-segmental means in the latter.

The article is available at:

http://sciphilology.ru/d/1076213/d/philology_no_3_15_may.pdf

***

***

Elmi işlər üzrə prorektor İradə Xəlilovanın məqaləsi dünyanın ilk ***Open Access*** jurnalı olan ***"PLOS ONE"***- nun 2018-ci il mart nömrəsində çap edilmişdir.

Məqalə kardiovaskulyar və digər bu kimi xəstəliklərdə iltihab zamanı toxuma zədəsinə səbəb olan və qan sirkulyasiyasında miqdarı çətin təyin edilən aktiv pro-miyeloperoksidazanın aşkarı və onun funksiyalarının müəyyən edilməsindən ibarətdir. Bu araşdırmanın gələcək tədqiqatlarda və məqsədəuyğun müalicə üçün mühüm elmi-praktiki əhəmiyyəti vardır.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

http://journals.plos.org/plosone/article?id=10.1371/journal.pone.0192952

An article by Assoc. Prof. Irada Khalilova, Vice-rector for Research, has been published in March edition of 2018 "PLOS ONE", the world's first and largest Open Access journal.

The article is about the determination of an active pro-myeloperoxidase (pro-MPO) and measuring its functions, which is difficult to detect in circulation. This study suggests that in addition to mature MPO, circulating pro-MPO may cause oxidative modifications of proteins thereby contributing to cardiovascular disease. This study has important scientific and practical significance for future investigations.

The article is available via the following link:

http://journals.plos.org/plosone/article?id=10.1371/journal.pone.0192952

***

Xəzər Universitetinin dissertantı Abbes Benmoussatın "Problems of Equity in the History: political approach" (Tarixdə bərabərlik problemləri: siyasi yanaşma") adlı məqaləsi Türkiyənin "The Journal of International Civilization Studies" ("Uluslararası Medeniyet Çalışmaları Dergisi") jurnalının III cildinin 2-ci sayında çap olunmuşdur.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

http://www.inciss.com/wp-content/uploads/2018/05/ABBES-BENMOUSSAT.pdf

Khazar University's dissertationist Abbes Benmoussat's article "Problems of Equity in the History: political approach" was published in Turkish "Journal of International Civilization Studies", in Volume II, No. 2.

The article can be found through the link below:

http://www.inciss.com/wp-content/uploads/2018/05/ABBES-BENMOUSSAT.pdf

***

ONLAYN NİFRƏT MESAJLARINA QARŞI



AGAINST ONLINE HATE SPEECHES

THE SAME komandasının təşəbbüsü ilə Xəzər Universitetinin tələbələri sosial şəbəkələrdə irqçi onlayn nifrət mesajlarına qarşı öz cavablarını bildirdilər, insanları dostluğa və bərabərliyə çağırdılar. Belə nifrət nitqlərinin yaranmaması üçün Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbələrindən ibarət THE SAME komandası daim nifrət mesajlarına qarşı və onların azalması yönümündə müxtəlif tədbirlər həyata keçirir.

Azərbaycanda son vaxtlar turistlərin sayı artmaqda davam edir. Mədəniyyətlərarası fərqliliklər, eləcə də, müxtəlif irqə sahib olan insanların artması isə yerli əhalinin bir qismini narahat etməyə başlayır, onlara qarşı yerli insanlar arasında kin, hətta nifrət yaranır və insanlar bu cür düşüncələrini sosial şəbəkələr vasitəsilə paylaşırlar. Bu isə irqçiliyə yönələn onlayn nifrət mesajlarının göstərici faizini daha da artırır.

THE SAME komandasının məqsədi isə irqçiliyin azalması üçün insanları bütün insanların eyni olduğuna inandırmaq və irqçiliyə qarşı laqeyd qalmamaq, eləcə də, sosial şəbəkələrdə onlayn nifrət nitqinin azalmasına yönəlik işlər görməkdir.

THE SAME komandası Edventure Partners (EVP) şirkətinin idarəçiliyi ilə Peer to Peer: Facebook Global Rəqəmsal Çağırış (P2P) müsabiqəsi əsasında yaradılmışdır. Müsabiqədə 50-dən artıq ölkəni təmsil edən komanda var. Ölkəmizi isə yarışda yalnız THE SAME komandası təmsil edir. Onlayn nifrət mesajlarının çoxaldığı bu dövrdə Facebook bu yarışa sponsorluq edərək, gənclərə nifrət mesajlarına qarşı kampaniya yaratmaları üçün dəstək verir.

Daha geniş məlumatı bu linklər vasitəsilə əldə etmək olar:

https://www.facebook.com/thesame.aze/
https://www.instagram.com/thesame.aze/

On initiatives of THE SAME team, Khazar University students expressed their views on online hate speeches on the social network. Thus students commented on a real online message containing hate, and they called people for friendship and equality. In order to eliminate these kinds of massages, THE SAME team, which consists of students of the School of Economics and Management of Khazar University, take some measures.

There has been an increase in the number of tourists in Azerbaijan. Intercultural differences, as well as the rise of people belonging to different races, cause disturbance for some people in Azerbaijan who become nervous and hate people with different race. People share their negative views on the social network. This in its turn increases the percentage of online hate speeches on racism.

In order to struggle against racism, the aim of THE SAME team is to take measures to persuade people in equality of all races and decrease the number of online hate speeches.

THE SAME team has been established on the competition *Peer to Peer: Facebook Global Digital Challenge (P2P)* which is managed by Edventure Partners (EVP) company. There are teams representing more than 50 countries in the competition. Azerbaijan is represented only by THE SAME team. Considering an increased number of online hate messages, Facebook sponsors the competition and supports the youth in the struggle against online hate speeches.

For further information:

https://www.facebook.com/thesame.aze/
https://www.instagram.com/thesame.aze/

ÇİKAQODA KEÇİRİLƏN "AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ -100" TƏDBİRİNDƏ XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ ÇIXIŞ ETDİ

KHAZAR UNIVERSITY INSTRUCTOR PARTICIPATES IN AN EVENT "THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC-100" HELD IN CHICAGO



Mayın 18-də ABŞ-ın İllinois ştatının Çikaqo şəhərində həmin ştatdakı "Azərbaycanlı Amerikalılar Cəmiyyəti"nin təşkilatçılığı ilə Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə geniş yubiley tədbiri keçirildi.

Tədbirdə İllinoysdakı Azərbaycan Cəmiyyətinin 200-dən çox fəalı, eləcə də, yaxın əyalətlərdən qonaq olan azərbaycanlılar, həmçinin Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi professor Nəsiman Yaqublu iştirak edirdilər.

Yubiley gecəsində təşkilatçılar qonaqları salamladıqdan sonra bir sıra azərbaycanlı və amerikalı dövlət rəsmiləri, alimləri tərəfindən təbrik çıxışları səsləndirildi. Çikaqo meri George Van Dusen, Türkiyənin Çikaqodakı konsulu Umut Acar, Azərbaycan Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Rəis Rəsulzadə, Tomris Azəri, Dr. Adil Bağırov, professor Harry Lepinske və digər qonaqlar Azərbaycan haqda xatirələrini və təbriklərini qonaqlara çatdırdılar. Professor Nəsiman Yaqublu toplantı iştirakçılarına cümhuriyyətin tarixi haqqında geniş məlumat verdi.

Yubiley gecəsinə gələ bilməyən Amerika Birləşmiş Ştatları Dəniz Qüvvələrinin Komandiri vəzifəsində çalışan azərbaycanlı Naimi Amiral (John Amiral) və digərlərinin təbrik məktubları da oxundu. Gecənin bədii hissəsində tanınmış tarzən professor Ramiz Quliyev, müğənnilər Lalə Məmmədova, Nuriyyə Hüseynova, Çinarə Məlikzadə və pianoçu Etibar Əsədli musiqi nömrələri ilə çıxış etdilər.

Tədbirdə iştirak edən qonaqlara təşkilatçılar tərəfindən cümhuriyyətin 100-cü ildönümü münasibətilə xüsusi olaraq hazırlanmış hədiyyələr də təqdim edildi. Tədbirin yüksək səviyyədə təşkili üçün İllinoysda yaşayan Azərbaycan Cəmiyyətinin fəalları maliyyə dəstəyi göstərmişdilər.

On May 18, a grand anniversary ceremony dedicated to the commemoration of 100th anniversary of the Azerbaijan Democratic Republic, the first democratic republic in the East, was held in Chicago city, Illinois state, on the organizational support of "Azerbaijan Society of America" functioning in Chicago.

Prof. Nasiman Yagublu, the instructor of the Department of History and Archaeology of Khazar University, as well as more than 200 activists of Azerbaijan Society in Illinois and Azerbaijanis from neighbouring countries participated in the ceremony dedicated to the commemoration of 100th anniversary of the Democratic Republic.

Upon greetings by the organizers, some state figures and scholars from Azerbaijan and America delivered congratulatory messages. George Van Dusen, Mayor of Chicago, Umut Ajar, Turkish Consul in Chicago, Rais Rasulzadeh, Mahammad Amin Rasulzadeh's grandson, Tomris Azeri, Dr. Adil Baghirov, Prof. Harry Lepinske and others talked about their memories of Azerbaijan and sent congratulatory messages. Prof. Nasiman Yagublu enlightened the participants about the history of the Republic.

Congratulatory letters by Naim Amiral (John Amiral), United States Navy Commander, and others, who could not take part in the ceremony, were read to the participants. In the musical part of the ceremony, Prof. Ramiz Guliyev, a tar player, Lala Mammadova, Nuriyya Huseynova, Chinara Malikzadeh and Etibar Asadli, a pianist, performed pieces of music.

The guests were presented with gifts especially designed for the 100th anniversary of the Democratic Republic. Activists of Azerbaijan Society living in Illinois made a financial support for a high-level organization of the ceremony.



SAN - FRANSİSKOLU CƏNAB

(hekayə)

İvan Bunin
Nobel mükafatı laureatı
1870-1953
Rusiya

San-Fransiskolu cənabın adını nə Neapol şəhərində, nə də Kapri adasında heç kim yadda saxlamadı. Arvadı və qızıyla Köhnə Dünyaya sırf əyləncə xatirinə iki illik səyahətə çıxırdı. İstirahət etməyə, kef çəkməyə, uzun-uzadı rahat səyahət etməyə tam haqqı olduğuna əmin idi. Bu cürə əminlik üçün əsasları da vardı. Birincisi, varlıydı, ikincisi isə, əlli səkkiz yaşı olmasına baxmayaraq, həyata yenicə addımlarını atırdı. Müəyyən müddət yaşamadı, sadəcə mövcud oldu. Düzdür, onun mövcudiyyəti elə də pis deyildi, amma yenə bütün ümidini gələcəyə bağlamışdı. Yorulmadan işləyirdi. İşə götürdüyü minlərlə çinli onun yorulmadan işləməsinin nə demək olduğunu yaxşı bilirdilər! Nəhayət, çəkdiyi zəhmətin könül açan bəhrəsini gördükdən sonra istirahət etmək qərarına gəldi. Gördüyü işləri özünə heç zaman nümunə götürmədiyi şəxslərin işləriylə müqayisə edirdi. Dövrəsində olduğu adamlar həyatdan həzz almağa Avropaya, Hindistana, Misirə səfər etməkdən başlamaq adətinə sadiq idilər. San-Fransiskolu cənab da belə etmək qərarına gəldi. Neçə illər ərzində çəkdiyi zəhmətə görə ilk növbədə özünü mükafatlandırmaq istəyirdi. Arvadı və qızına görə də sevinirdi. Yaşlı amerikalı qadınlar ehtiraslı səyyahlar olduqlarından, San-Fransiskolu cənabın arvadı digər qadınlardan xüsusi həssaslığıyla fərqlənmirdi. Qızına gəldikdə isə, həddi-buluğa çatmış, bir az da naxoş qız olduğundan, səyahətə ehtiyacı vardı. Səyahət etməyin sağlamlığa faydasından çox danışmaq olar. Axı səyahətlərdə uğurlu görüşlər olur. Bəzən masa arxasında oturursan, bəzən də milyarderin yanında durub freskalara baxırsan.

San-Fransiskolu cənab səyahət marşrutunu geniş hazırlamışdı. Dekabrda, ya da yanvarda Cənubi İtaliyanın günəş şüalarından, qədim tarixə malik abidələrindən, xalq rəqslərindən, avara müğənnilərin sevdikləri qızların eyvanı altında oxuduqları serenadalardan, həmyaşıd olduğu insanlar kimi, gənc neapollu qızların istər təmənnalı, istərsə də təmənnasız sevgisindən həzz almağa ümid edirdi. Fransanın Nitsa, Monakonun Monte-Karlo şəhərində karnavallar keçirməyi düşünürdü. Cəmiyyətin say-seçmə adamlarının axın etdiyi bu şəhərlərdə bəziləri böyük həvəslə avtomobil və yelkənli qayıqların yarışına qatılır, bəziləri ruletka oynayır, bəziləri eşqbazlıqla məşğul olur, bəziləri də, zümrüd yamacın yaşıllıqlarından səmaya qalxıb yaddaş çiçəyinin göyümtüllüyünə bürünmüş dənizin fonunda uçuşan, ağımtıl bədənləriylə torpağa toxunan göyərçinləri ovlayırdılar. San-Fransiskolu cənab martın əvvəllərində ömrümü Florensiyaya həsr etmək, katolik duasını dinləmək üçün, tanrının izniylə, Romaya getmək fikrindəydi. Venesiya, Paris, öküz döyüşünün keçirildiyi Sevilya şəhəri, ingilis adalarında çimmək, Afina, İstanbul, Fələstin, Misir, hətta Yaponiya da onun planlarına daxil idi... Əvvəl işləri yaxşı gedirdi.

Noyabrın axırları idi. Cəbəllütariqdən başlayaraq gah buzlu dumanlara, gah da sulu qarlı-boranlı tufanlara sinə gərən gəmi durmadan üzürdü. Sərnişinlər çox idi. Məşhur "Atlantida" buxar gəmisi bütün rahatlıqlarla təmin olunmuş nəhəng mehmanxananı xatırladırdı. Şərq memarlığı üslubunda hamamları, gecə barı, özünün qəzeti vardı. Bu gəmidə həyat ahənglə axırdı. Sərnişinlər səhər tezdən, günəş şüalarının səmadakı dumandan təşvişə düşüb boz-yaşıl su səhrasının üzərində qaşqabaqla işıldadığı tutqun saatlarda bütün dəhlizləri bürüyən sirenanın çağırış səslərilə oyanır, əyinlərinə flanel pijamalar geyinib, kofe, şokolad, kakao içirdilər. Mərmər vannaya otururdular, gimnastika edərək iştahlarını açır, yaxşı əhval-ruhiyyədə olurdular. Ayaqyoluna gedib təbii ehtiyaclarını ödəyir, sonra da masa arxasına əyləşib, birinci səhər yeməklərini yeyirdilər. Saat on birə qədər göyərtədə okeanın soyuq təravətli havasından udumlaya-udumlaya gümrah gəzintidə olmalı, iştahlarını artırmaq üçün şaffl bord oyunu və ya digər oyunlar oynamalıydılar. Saat on birdə isə, gümrah görünsünlər deyə, buterbrod yeyib, bulyon içməliydilər. Bundan sonra, məmnuniyyətlə qəzet oxuyar və birinci səhər yeməyinə nisbətən daha çox qidalı olan müxtəlif çeşidli ikinci səhər yeməyini səssiz-səmirsiz gözləyərdilər. Növbəti iki saat istirahətə həsr edilirdi. Göyərtəyə qoyulmuş qamış kreslolarda səyahətçilər yun şala bürünüb uzanır, buludlu səmanın seyrinə dalır, dağların yamaclarından şırıltıyla axan çayların gah qayalara çırpılaraq köpüklənib sayrışmasına, gah da şirin-şirin mürgüləməsinə tamaşa edirdilər. Təravətlənmiş, gümrahlaşmış sərnişinlər saat beşdə ətirli çaydan içib, peçenye yeyirdilər. Saat yeddidə isə, sirena siqnalının xəbərdaredici səsi, bütün bu gəmidəki mövcudiyyətin əsas məqsədini, ən yüksək zirvəsini təşkil edirdi. Buna görə də San-Fransiskolu cənab paltarını dəyişmək üçün lüks otağına tələsirdi.

Axşamlar "Atlantida"nın mərtəbələrindən zülmətdə sayrışan saysız-hesabsız alovlu gözlər görünürdü. Xidmətçilərin çoxusu mətbəxdə, qabyuma otağında, çaxır çəlləkləri ilə dolu zirzəmilərdə işləyirdilər. Gəminin divarlarında gəzişən okean qorxuluydu, amma heç kim buna fikir vermirdi. Çünki gəmiyə rəhbərlik edən, nəhəng boy-buxuna malik, ağırçəkili, kürən saçlı, həmişə yuxulu olurmuş kimi bir görkəmi olan, geniş qızıl toxumalarla zəngin mundirində bütə bənzəyən, sirli sükutundan məhrum olmamaq üçün adamların arasında nadir hallarda görünən komandirin hakimiyyətinə möhkəm inanırdılar. Çəndə hər dəqiqə cəhənnəm zülmətiylə və dəhşətli qəzəblə sirena zingildəyirdi. Açıq-saçıq paltarlar geyinmiş xanımlarla, frak, smoking geyinmiş kişilərlə, qədd-qamətli lakeylərlə və hörmətli inzibatçılarla dolu, bayram alovlarıyla bəzənmiş ikirəngli zalda gözəl simli orkestrin yorulmadan ifa etdiyi musiqilər sirenanın səsini boğduğundan, nahar eləyən sərnişinlərin çoxusu bu səsi eşitmirdilər. Şərab sifarişlərini qəbul edən inzibatçının boynunda zəncir vardı, lord-mer kimi gəzirdi.

Əynindəki smoking və nişasta vurulmuş alt paltarları San-Fransiskolu cənabı cavanlaşdırırdı. Bu gəmi-imarətin qızılı-mirvari şəfəqlərində şərab içməyə əyləşmişdi. Masanın üstündə incə qədəhlər və saçaq-saçaq sünbülçiçəkləri vardı. San-Fransiskolu cənabın burma bığlı sarımtıl bənizindən monqolları xatırladan nələrsə sezilirdi. İri dişləri qızıl plomblarla, möhkəm keçəl başı isə köhnə fil sümüyü kimi parlayırdı. Arvadı zəngin idi. Yaşına uyğun geyinmirdi. Hündürboy, dolu bir qadın idi. Həlim təbiətliydi. Adamayovuşmaz, məsum, səmimi qızı vardı. Hündürboy, incə bir qız idi. Gözəl saç düzümü vardı. Bənövşə güllərinin qoxusu gəlirdi ondan. Dodaqlarının qırağında və azacıq pudralanmış kürəyinin ortasında zərif çəhrayı sızanaqlar vardı.

Nahar adətən bir saatdan çox davam edirdi. Nahardan sonra isə bal rəqslərinin keçirildiyi zal açılır, bu zaman kəsiyində kişilər, - San-Fransiskolu cənab da onların arasındaydı, - ayaqlarını üst-üstə aşırıb, bənizləri moruq kimi qızarana qədər kuba siqarları çəkir, birja xəbərlərinə əsaslanıb xalqın taleyini həll edir, çoxlu likör içirdilər. Barda xidmət edən qırmızı komzol geyinmiş zəncilər qabığı soyulmuş, zülallı sərt yumurtalara bənzəyirdilər.

Okean qara dağların divarlarında uğultuyla gəzişir, çovğun gəmidəki ağır alətlərin vasitəsiylə fit çalır, gəmi tufana da, çovğuna da sinə gərərək titrəyir, aşıb-daşan dağ çaylarını kotan kimi yarırdı. Dumanla boğulan sirena ölümcül səslə zarıldayır, qarovul durmuş növbətçilər şaxtadan donur, ağır

gərginlikdən gəminin qülləsində ağıllarını itirirdilər. Cəhənnəmin qızmar və tutqun dərinliklərinə, sonuncu - doqquzuncu qatına bənzəyən gəminin bətnində atəşiylə kömür yığınını yeyən qızdırıcı ocaqlar qalanır, çırtıltıyla közərən bu ocaqların kəskin tüstüsü, qurşağa qədər çılpaq fəhlələrin istidən qızarmış tərli bədənlərinə hopurdu. Bardakı varlı kişilər isə ayaqlarını qayğısız-qayğısız kresloların stul dəstəyinə aşırıb, konyak və likör süzür, ətirli tüstünün dalğalarında üzürdülər. Rəqs zalında sevinc və şadlıq parlayırdı. Sevgili cütlüklər gah vals səsləri altında fırlanır, gah da tanqo səsləri altında bir-birilərinin addımlarını yamsılayırdılar. Musiqinin isə abırsız şirin kədərlə, israrla yalvardığı yalnız bircə istəyi vardı, həmişəki kimi...

Bu parlaq camaatın arasında üzü təraşlı, hündürboy, köhnə frakda, kilsə ruhanisinə bənzəyən varlı bir adam, məşhur ispan yazıçısı, dünya gözəli, hamının maraqla izlədiyi, bir-birini zərifcəsinə sevən cütlük vardı. Bu cütlük öz xoşbəxtliyini heç kimdən gizlətmirdi. O kişi yalnız sevgilisylə rəqs edirdi. Onlarda hər şey elə füsunkar, elə ecazkar alınırdı ki, bu cütlüyün Lloyd tərəfindən verilən babat pulların müqabilində sevgi oyunu oynadıqlarını yalnız gəmi komandiri bilirdi. Həmən bu Lloyd lap çoxdan gah bir gəmidə üzürdü, gah da bir başqa gəmidə.

Cəbəlüttariqdə hamını günəş sevindirdi. Sanki erkən yaz gəlmişdi. "Atlantida" gəmisində hamının marağını özünə cəlb edən yeni bir sərnişin peyda oldu. Bu sərnişin Asiya ölkələrindən birinin şahzadəsi idi. Özgə adla səyahət edirdi. Bəstəboy, arıq, enlisifət, badamı gözlü adam idi. Qızıl eynək taxmışdı. Azacıq xoşagəlməzliyi vardı. Topa bığları ölününkünə bənzəyirdi. Ümumilikdə isə suyuşirin, sadə və təvazökar adam idi. Aralıq dənizində tovuz quşunun quyruğuna bənzər əlvan rəngli böyük dalğalar vardı. Bu dalğalar parlaq və təmiz səmada şənliyi artırdı və dəli kimi uçan tramontana küləyi onları qarşıladı...

Günün ikinci yarısında səma solğunlaşdı, üfüqlər tutqunlaşdı: gəmi sahilə yan alırdı. İakya, Kapri adaları göründü, binokldan baxanda boz Neapol görünürdü... Xanımların və centlmenlərin çoxusu xəz yaxalıqlı yüngül kürklər geyinmişdilər. Həmişə pıçapıçla danışan lal-dinməz işgüzar, fağır çinlilər, başdan-başa hörmə saçlı, qalın kipriklərı olan əyrilayaq yeniyetmələr ehtiyatla nərdivanlara yun şallar, əl ağacları, çemodanlar, içində ayaqyolu ləvazimatları olan qutular çıxarırdılar...

San-Fransiskolu cənabın qızı dünən axşam, xoş bir təsadüf nəticəsində, göyərtədə şahzadənin yanında durmuşdu. Özünü elə göstərirdi ki, guya şahzadənin ona həlim səslə nəsə izah edərək, nəsə tələsik danışaraq işarə etdiyi uzaqlıqlara baxır. Şahzadə digər kişilərlə müqayisədə oğlan uşağına oxşayırdı. Həm köntöy adam idi, həm də qəribə. Eynəyi, yumru şlyapası, ingilis paltosu, at tükünə bənzər nadir bığları, yastı bənizinin dartılmış, azacıq bəzədilmiş əsmər dərisi vardı. San-Fransiskolu cənabın qızı həyəcandan şahzadənin dediklərindən heç nə anlamasa da, onu dinləyirdi. Ürəyi şahzadəyə qarşı duyduğu anlaşılmaz heyranlıqdan döyünürdü. Şahzadə bütün xüsusiyyətlərilə başqalarından quru əlləri, içindən çar qanı axan təmiz dərisiylə fərqlənirdi. Hətta onun Avropa üslubunda, çox sadə, səliqəli geyimi anlaşılmaz cazibədarlıqları gizlədirdi özündə.

San-Fransiskolu cənabın özü isə boz getrli çəkmələrdə, qarşısında durmuş məşhur gözələ, hündürboy, son Paris dəbinə uyğun gözləri sürməli sarışın qıza baxırdı. Qız əlindəki gümüşü zəncirlə bambalaca, əldən düşmüş, tükü tökülmüş və həməöhbət olduğu itini saxlayırdı. San-Fransiskolu cənabın qızı isə partlik olmasın deyə, atasına fikir verməməyə çalışırdı.

Atası səyahət zamanı kifayət qədər əliaçıq olduğundan, ona yemək-içmək verənlərin, səhərdən-axşama kimi xidmətində duranların, ən xırda arzularına kimi bütün istəklərini dərhal yerinə yetirənlərin, onun təmizliyini qoruyanların, dinclik, rahatlıq verənlərin, əşyalarını daşıyanların, onun üçün hambal çağıranların, sandıqlarını mehmanxanaya çatdıranların qayğısına inanırdı. Hər zaman və hər yerdə belə olmuşdu. Həm gəmidə belə olmuşdu, elə Neapolda da belə olmalıydı. Neapol böyük şəhər idi. Gəmi Neapola yaxınlaşırdı. Musiqiçilər nəfəsli alətlərinin misini parıldadaraq, göyərtəyə yığışmışdılar. Qəflətən musiqiçilərin ifa etdiyi marşın səsləri bütün sərnişinlərin qulaqlarını batırdı. Nəhəng komandir öz parad formasında mərhəmətli bütpərəst tanrı kimi ortaya çıxdı. Əlini yelləyib

sərnişinləri salamladı. "Atlantida" limana daxil olduqda isə, çoxmərtəbəli, adamlarla dolu nəhəngliyiylə sahilə söykəndi. Gəminin körpüsü guruldadı. Nə qədər mehmanxana qapıçıları və onların qabağı günlüklü papaqlarda, zərli baftalarda olan xidmətçiləri, nə qədər tacirlər, avara, yekəpər oğlanlar əllərində rəngbərəng açıqcalar gəmiylə görüşə xidmət təklifiylə tələsirdilər! San-Fransiskolu cənab bu yekəpər səfil oğlanların üzünə gülümsədi, şahzadənin də qala biləcəyi mehmanxanın avtomobilinə tərəf gedərək, yoluna çıxan səfillərə dodaqaltı gah ingiliscə, gah da italyanca dedi:

-Go away! Via!

Neapolda həyat öz axarıyla davam edirdi. Səhər tezdən yemək otağının alatorarlığında səhər yeməyi, tutqun, buludlu səma və dəhlizin qapıları qarşısında bələdçilər. Sonra da açıq çəhrayı günəşin ilk gülümsəyişləri. Ən yüksək eyvandan Vezuvіyə, başdan-başa parıldayan səhər şəfəqlərinə bürünmüş sevgili cütlüklərə, körfəzin gümüşü-mirvari zərif dalğalarına və üfüqdəki Kapri adasının incə simasına, aşağıda, sahildə qaçışan ikitəkərli arabaya qoşulmuş qoduqlara və gümrah musiqi sədaları altında haralarasa addımlayan əsgər dəstələrinə tamaşa etmək. Sonra avtomobilə keçmək, adamların çox olduğu küçələrlə asta-asta hərəkət etmək, hündür, çoxpəncərəli evlərin arasıyla, ölü təmizliyə qərq edilmiş xoşagəlimli, ancaq qar kimi darıxdırıcı olan işıqlandırılmış muzeylərə baş çəkmək və ya mum qoxuyan soyuq kilsələrə getmək. Bu kilsələrin hamısı eyni cürdür: dəri pərdəylə bağlanmış əzəmətli giriş yeri, içərisində isə böyük boşluq, sükut, krujevalarla bəzədilmiş yeddişamlı şamdanın dərinliklərdə qızaran işıltısı. Köhnə taxta oturacaqlarda əyləşmiş bir qarı, ayaqlar altında sürüşkən tabut lövhələr və "Xaçdan azad edilmə" ayini. Saat birdə, günortaya qədər çoxlu nüfuzlu insanların yığışdığı San-Martino dağının ətəyində ikinci səhər yeməyi. Bir dəfə məhz bu məkanda San-Fransiskolu cənabın qızının halı az qalmışdı pisləşsin. Ona elə gəlmişdi ki, şahzadə zalda əyləşib, halbuki şahzadənin Romada olduğunu qəzetdən oxumuşdu. Saat beşdə mehmanxananın yaraşıqlı zalında çay verilirdi. Zaldakı xalçalar və çırtaçırt yanan buxarılar cana istilik verirdi. Bu mehmanxanada da, gəmidə olduğu kimi, yenidən nəhərə hazırlaşırdılar, yenidən bütün mərtəbələrə adamların güclü axıntısının uğultusu eşidilirdi, yenidən nərdivanlar ipəklərin xışıltısıyla səslənir, sonradan bu ipəklər qadınların güzgüdə özlərinə baxarkən fərəhlənməsiylə nəticələnirdi, yenidən yemək otağının qonaqpərvərliklə açılmış qapıları, estrada musiqiçilərinin qırmızı gödəkcələri, yenidən qeyri-adi bacarıqla boşqablara qatı çəhrayı sup tökən qara xidmətçilər ofisiantların yığışdığı otağın qarşısında... Həmişəki kimi, müxtəlif çeşiddə nahar yemək ləri, mineral sular, şirniyyatlar, meyvələr, axşam saat on birdə isə mehmanxananın bütün nömrələrinə kənçuk sular verirdilər. Adamların mədələri qızsın deyə...

Dekabr elə də uğurlu olmadı. Qapı qarşısındakı xidmətçilərə hava haqda sual verəndə, günahkarcasına çiyinlərini sallayır, belə hava şəraitini heç zaman unutmayacaqları barədə burunlarının altında bir-iki ağız donquldanırdılar. Belə suallarla çox qarşılaşdıqlarından, təşkilatçılıq verir, hər yerdə dəhşətli nələrinsə yaşandığını deyib, yola verirdilər. Məsələn, Rivyerada tufan qopub, leysan var, Afinada qar var, Etnanı da qar basıb, vulkan püskürür, Palermodan turistlər şaxtadan xilas olmaq üçün qaçırlar...

Səhər günəşi aldadıcı olurdu. Günortadan başlayaraq hava bozarır, yağış yağır, soyuq olurdu. Mehmanxananın qarşısında palma ağaclarının yarpaqları parlayır, şəhər çirkli və cansıxıcı görünür, muzeylər bir-birindən fərqlənmir, yük daşıyan kök arabaçıların çiyinlərindən salladıqları rezin torbalardakı siqar kötükləri dözülməz iy verir, atları canfəşanlıqla qamçılamalarından saxtalıq yağırdı, tramvay relslərindəki zır-zıbılı ətrafa dağıdan cənabların ayaqqabıları dəhşətli görünürdü. Yağışın altında, palçıqlı yollarda gəzişən qadınların ayaqları isə biabırçı dərəcədə gödək idi. Dənizdə köpüklənən çürümüş balıqların üfunət iyindən isə heç danışmağa dəyməz.

San-Fransiskolu cənab və xanımı səhərlər dalaşırdılar. Onların qızı gah solğun sifətlə, baş ağrısıyla gəzirdi, gah da özünə gəlirdi və hamıya heyran qalırdı, o zamanlar həm suyuşirin idi, həm də gözəl. Eybəcər adamla görüşməsi onda izahedilməz, anlaşılmaz şirin hisslər oyatdı. Bu eybəcər adamın bədənindən qeyri-adi qan axırdı. Özü də qızın ürəyini nələrin ovlaması, nələrin qızın ürəyində yer

eləməsi elə də vacib məsələ deyil. İstər pul olsun, istər söz olsun, istərsə də şöhrət...

Hamı Sorrento şəhərində nələrinsə yerində olmadığını hiss edirdi. Kapri adasında isə həm istidir, həm limonlar çiçəkləmişdi, həm dürüst əhalisi var, həm də şərab daha təbiidir. Buna görə də, San-Fransiskolu cənabın ailəsi yır-yığışdırıb Kapri adasına yola düşməyə qərar verdi. Axı Tveriya sarayının xarabalıqlarında gəzişməkdən, nağıllar dünyasına aparan Mavi Mağarada olmaqdan, Milad bayramı ərəfəsində bütün günü veyil-veyil gəzərək, Məryəm Anaya mədhiyyələr oxuyan Abruzski zurnaçılarının ifasını dinləməkdən, Sorrentoda yerləşməkdən gözəl nə ola bilərdi?!

San-Fransiskolu cənabın ailəsi üçün əlamətdar olan səyahətə düşdükləri gün, günəş şəfəqləri gözə dəymirdi. Qatı duman Vezuvini cənginə alıb gizləyir, dənizin xəfif ləpələri parlayırdı. Kapri adasının isə tamamilə görünməz olması, sanki belə bir ada yer üzündə heç zaman olmamışdır kimi bir təəssürat yaradırdı. Bu adaya sarı gedən balaca gəmi isə sağa-sola yırğalandığından, San-Fransiskolu cənabın ailəsi şala bürünüb divanda uzanmışdı. Xanımı hamıdan çox əzab çəkdiyini düşünürdü. Ona elə gəlirdi ki, özünü pis hiss edir, bu gün-sabah öləcək. Neçə illər bu gəmidə xidmət edən, dənizin hirsli-hikkəli dalğalarına dözən qulluqçu qadın isə əlində ləyənçə San-Fransiskolu cənabın xanımına tərəf qaçır, yorulmaq nədir bilmədiyindən, sadəcə gülürdü.

Xanımın bənizi dəhşət solğun idi. Ağzında limon dilimi saxlayırdı. Kürəyi üstə uzanmış, geniş palto geyinmiş, günlüklü papaq qoymuş cənab isə bütün yol boyu çənəsini tərpətmirdi. Bənizi qaralmış, bığları ağarmışdı. Axmaq havayla əlaqədar son günlər başı dəhşət ağrıyırdı. Gecələr çox içki içir, qumarxanalarda "canlı rəsmlərə" tamaşa edirdi. Şüşələri taqqıldadan yağış durmadan yağır, nələrisə dəlirdi. Gəmi Kastellamaredə və Sorrento adasında dayanarkən, vəziyyət bir az düzəldi. Amma burada da külək dəhşətlə vıyıldayırdı. Sahildəki uçurumlar, bağlar, ağaclar, çəhrayı və ağ mehmanxanalar, qıvrımsaç yaşıl dağlarda dolanıb, qayıqları qayalara çırpan küləklər adamı vahiməyə salırdı. "Royal" mehmanxanasının bayrağı altında durub bağıran paltək oğlan uşağı isə səyahətçiləri tələyə salırdı. San-Fransiskolu cənab sərnişinsaq iyi verən, özünü italyan adlandıran bu xəsislər haqqında kədərlə və qəzəblə düşünürdü. Kasıb daxmaları, düz dənizin qarşısında, bir-birinin yanında tikilmiş kif basmış daş evlərə baxdıqdan sonra arzularında yaşatdığı İtaliyanın yalnız və yalnız bu gördüklərindən ibarət olması onda xəyal qırıqlığı yaratdı, ümidsizlik carını bürüdü...

Axşam Kapri adasındakı funikulyor meydançasına camaat axışmışdı. San-Fransiskolu cənabı böyük hörmətlə qarşılamaq bu adamların borcuydu. Bu adada ruslar da məskunlaşmışdı. Fikirləri dalğın idi, eynək taxmışdılar, saqqal buraxmışdılar, köhnə paltolar vardı əyinlərində. Çiyinlərində kətan çantalar sallanan, heç kimin xidmətinə ehtiyac duymayan, xəsisliklərilə fərqlənən yumrubaş alman gəncləri də vardı aralarında. San-Fransiskolu cənab onlara fikir vermədən kənara çəkilməklə bu adamların diqqətini özünə cəlb etdi. Cənaba və onun xanımına al-ayağa düşən xidmətçilər tələsik kömək göstərib, yolu nişan verdilər. Yenə onları köntöy görünüşlü küçə uşaqları dövrəyə aldılar. San-Fransiskolu cənab bu uşaqların arasından heç nə olmamış kimi keçdi.

Nəzakətlə başını əyib, San-Fransiskolu cənabın ailəsini qarşılayan zərif görkəmli bəy bir anlıq San-Fransiskolu cənabı təəccübləndirdi. Dünən gecə gördüyü qarmaqarışıq bir yuxunu xatırladı. Bu bəy, elə indicə gördüyü görkəmdə onun yuxusuna girmişdi. Təəccübündən bir anlığına duruxdu. Ürəyinə səpilmiş sirli-vahiməli toxumlardan birəcəyi də qalmadı. Mehmanxananın dəhlizlərində gəzişərkən bu qəribə təsadüfi yuxusunu bəyə danışdı. San-Fransiskolu cənabın qızı birdən ürəyi kədərdən saxsınmış halda, ürkək-ürkək baxışlarla bu bəyə baxdı, bu qorxunc adada içini dəhşətli tənhalıq hissi bürüdü...

San-Fransiskolu cənabın ailəsini mehmanxananın ən təmtəraqlı nömrəsinə apardılar. Gözəl-göyçək, incə-mincə belçikalı bir qulluqçunu ailəyə təqdim etdilər. Bir dəqiqədən sonra isə otağın qapısını fransız baş-ofisiant döydü. Ailənin nahar edib-etməyəcəyini bilmək istəyirdi. Əgər nahar etmək istəsəydilər, növbəti sualını verəcəyinə şübhə yox idi. Dəniz xərçəngi, qızardılmış mal əti, qulançar, qırqovul və. s

Bu italyan gəmisi San-Fransiskolu cənabı çox o yana, bu yana yırğalamışdı. Ofisiantların işlədiyi

mətbəxin pəncərəsini aramla bağladı. Pəncərədən bişirilən yeməklərin, bağdakı tər güllərin qoxusu gəlirdi. Ofisianta nahar edəcəklərini dedi. Ailəsi üçün hazırlanmış masanın mətbəxdən kənara, zalın bir küncünə qoyulmasını tapşırdı. Yerli şərab sifariş verəcəklərini dedi. Cənabın müxtəlif səs tonlarında dediyi hər sözünə ofisiant "bəli", "oldu", "baş üstə" kimi sözcüklərlə, başını yuxarı-aşağı yelləməklə münasibət bildirirdi. Axı San-Fransiskolu cənabın istəklərində haqlılığına heç bir şübhə ola bilməz və verilən əmr olduğu kimi yerinə yetirilməlidir.

Ofisiant nəzakət əlaməti olaraq başını əyib soruşdu:

- Başqa istəyiniz varmı, cənab?

Əvəzində heysizləşmiş səslə "yes" kəlməsini eşitdi, sonra əlavə etdi ki, bu gün vestibüldə tarantella var. Bütün İtaliyada məşhur, bütün turistlərin tanıdıqları rəqs cütlüyü - Karmella və Cüzeppe.

- Karmellanın şəklini açıqcalarda görmüşəm, - San-Fransiskolu cənab ifadəsiz səsiylə dedi. – Bəs bu Cüzeppe kimdir, onun əridir?

- Əmisi oğludur, cənab, - baş ofisiant cavab verdi.

Nəsə fikrə dalan San-Fransiskolu cənab heçnə demədən, başıyla işarə edib, ofisiantı yola saldı.

Sonra yubanmadan, həmişəki kimi əyləncə gecəsinə hazırlaşdı: hər yerdə işığı yandırdı, bütün güzgünü işığın parıltısına və açılmış sandıqçaların, mebellərin əksinə bürüdü. Üzümü qırxıb, yuyunmağa başladı. Dəhlizdə yaranan səs-küylərdən bezikən kimi hay-həşir salırdı. Qırmızı önlüklü ofisiantların biri olan Luidci isə əlində vedrə, bir çox pəzəvəng kişilərə xas, sifətinə hamının gülüşünə səbəb olan yazıq görkəm verərək cənabın hayına çatır, qapını sür-sümük əllərıylə döyərək, ikiüzlü qorxaqhqla, səfehlik həddində ehtiramla soruşurdu:

- Cənab, siz çağırırdınız?

Otaqdan isə heysizləşmiş xırıltılı səs eşidilirdi.

- Hə, keç içəri...

Görəsən San-Fransiskolu cənab onun üçün bu qədər əlamətdar olan bir gecədə nələri düşünürdü? Gəminin yırğalanmağını hiss etmiş istənilən birisi kimi, yemək istəyir, şorbadan bir qaşıq ağzına almasını, bir qurtum şərab içməsini xəyalında canlandırırdı. Adəti üzrə ayaqyoluna gedir, bununla da düşüncələrdən azad edirdi özünü.

Üzümü qırxdı, yuyundu, bir neçə taxma dişini yerinə otuzdurdu, güzgünün qarşısında dayanıb özünə baxdı. Mirvari saçlarını suyla daradı. Şişman bədənirə krem çəkdi. Bəl ayaqqabılarını qaydaya saldı. Qara ipək corablarını, qara şalvarını və qar kimi təmiz köynəyini geyinib, qollarındakı və yaxalığındakı parlaq düymələri təmizlədi. Amma yaxalığındakı düymə dərisini dişləyirdi. Gözləri gərginlikdən parladı. Xirtdəyini sıxan yaxalığını birtəhər düzəltdi. Yorulub əldən düşmüş vəziyyətdə güzgünün qarşısında əyləşdi.

- Bu, dəhşətdir! – o, daz başını aşağı sallayaraq mızıldandı. Nəyin dəhşət olduğunu bilmirdi, heç bilmək də istəmirdi. Badamı rəngdə qabarıq dırnaqlarına baxıb əmirliklə təkrarladı:

- Bu, dəhşətdir...

Möhkəm ciyiltiylə bütpərəst məbədini xatırladan zəng səsləndi. San-Fransiskolu cənab cəld yerindən qalxıb qalstukunu çəkdi, smokinqini geyinib, köynəyinin parlaq düymələrinə əl gəzdirdi, bir daha güzgüdə özünə baxdı...

Qırmızı xalçalar sərilmiş dəhlizlə asta-asta gedərək, xidmətçilərə fikir vermədən qiraət otağını axtardı. Nahar yeməyinə gecikən beli bükük, açıq-boz ipək don geyinmiş qarı öndə sürətlə gedirdi. Cənab onu qabaqladı. Hamı yemək otağına yığılmışdı. Nahar başlamışdı. Siqar qutularıyla və Misir siqaretləriylə dolu masanın qarşısında dayandı. Açıq pəncərədən havaya baxdı.

Qiraət otağında sakit və işıqlıydı. Qəzetlərin xışıltısı eşidilirdi. Masanın arxasında oturub qəzet oxuyan bir eynəkli almanın dəli kimi gözləri vardı. Yazıçı Henri İbsenə bənzəyirdi. San-Fransiskolu cənab soyuq baxışlarıyla onu nəzərdən keçirib, küncdəki dəri kresloda əyləşdi. Qəzet oxumağa başladı. Bir neçə məqalənin başlıqlarına baxdı, heç zaman bitməyəcək Balkan müharibələri haqda yazılmış

məqalədən bir neçə sətir oxuyub, adəti üzrə qəzeti bükdü. Birdən sətirlər gözləri önündə şüşə kimi parladı, boynu gərginləşdi, gözləri şişdi... Havadan udumlamaq üçün irəli addımladı, dəhşət xırıldaddı, çeynəmə əzələləri boşaldı, alt çənəsi sallandı, ağzındakı qızıl plomblar sayrışdı. Başı çiyninə enib yırğalanmağa başladı. Köynəyinin sinəsi qutu kimi önə çıxdı. Döşəməyə sərildi. Mübarizə aparır, ayaqqabılarının dabanını xalçaya vurur, var qüvvəsiylə sürünürdü...

Əgər qiraət otağında qəzet oxuyan bu alman olmasaydı, mehmanxana heyəti bu dəhşətli hadisəni ört-basdır edərdilər və heç kim də San-Fransiskolu cənabın başına nə hadisə gəlməsindən xəbər tutmazdı. Alman qışqır-bağır salıb, qiraət otağından çıxdı, bütün yeməkxana bu təlaşlı səsdən təşvişə düşdü. Çoxları yeməklərini yarımçıq qoyub qiraət otağına qaçır, hamının dodaqlarında suallar səslənirdi: "Nə olub elə, nə olub?" - heç kim də dəqiq bir cavab verə bilmirdi. Heç kim heç nə anlamırdı. Çoxları hələ də kiminsə ölümünə heyrətlənib, buna inanmaq istəmirlər. Mehmanxana sahibi qiraət otağına axışan qonaqları dayandırmağa, sakitləşdirməyə çalışır, onları əmin edirdi ki, elə də böyük bir hadisə baş verməyib, fikir verməyin, boş şeydir, San-Fransiskodan olan bir cənabın sadəcə kiçicik ürəkgetməsi olub... Ancaq heç kim mehmanxananın sahibinə qulaq asmırdı. Çünki lakeylərin San-Fransiskolu cənabın boğazından qalstukunu, jiletini, əzilmiş smokinqini, ayaqqabılarını dartıb çıxartdıqlarını görürdülər. San-Fransiskolu cənab həyat mücadiləsi verirdi. Ürəyi döyünürdü. Ölümün ona qalib gəlməsinə macal vermək istəmirdi. Başını yelləyir, öskürür, sərxoş kimi gözləri axırdı...

San-Fransiskolu cənabı tələsik mehmanxananın qırx üçüncü nömrəsinə aparıb, köhnə dəmir çarpayıya uzatdılar. Bu otaq balaca, ən pis otaq idi. Nəmişlik vardı otaqda. Həm də soyuq idi. Dəhlizdən bu nömrəyə onun qızı qaçıb gəldi. Saçlarını buraxmışdı. Sinəsi açıq idi. Sonra isə bər-bəzəkli arvadı gəldi, dəhşətdən ağzı açıq qalmışdı... San-Fransiskolu cənab başını tərpətmirdi...

On beş dəqiqədən sonra mehmanaxada hər şey öz axarına düşdü. Ancaq baş verən hadisə gecənin sükutunu pozmuşdu. Yemək otağından qayıdan bəziləri susub durmuş, bəziləri də narazı simalarıyla naharlarına davam edirdilər. Mehmanxana sahibi gah bir nəfərə, gah da o biri nəfərə yaxınlaşıb əllərilə onların kürəyinə vurub təskinlik verir, günahkarcasına bir görkəm alır, onları əmin edirdi ki, baş verən hadisənin "xoşagəlməz fəsadlarını" aradan qaldırmaq üçün "çox ciddi ölçü götürəcək". İtalyan xalq rəqslərinin keçirilməsi təxirə salındı, lazımsız işıqlar söndürüldü, qonaqların çoxusu pivəxanaya getdi, araya ölü sükut çökdü. Saat əqrəblərinin səsi aydın eşidilirdi...

San-Fransiskolu cənab ucuz dəmir çarpayının üstündə uzanmış, üstünə isə kobud yun yorğan sərilmişdi. Tavanda tutqun işıq sayrışırdı. Soyuq alnına buz qovuğu qoymuşdular. Bozumtul bənizi tədricən soyuyurdu. Qızıl plomblarla sayrışan ağzından çıxan xırıltı səsləri səngiyirdi. Xırıldayan adam San-Fransiskolu cənab deyildi. O, artıq mövcud deyildi. Kimsə başqa birisiydi. Arvadı, qızı, həkim, xidmətçilər durub ona baxırdılar. Birdən xırıltı səsləri tamamilə kəsildi. Hamının qarşısında ölmüş şəxsin bənizi solğunlaşdı, üz cizgiləri incələşib işıldadı... Mehmanxana sahibi otağa daxil oldu. Ölüb artıq, - həkim mehmanxana sahibinə dedi. O, heç nə olmamış kimi həyəcansız-filansız çiyinlərini salladı. Yanaqlarından göz yaşları diyirlənən xanımı isə ürkək pıçıltıyla dedi ki, indi mərhumu öz otağına aparmaq lazımdır...

- Yox, madam, - mehmanxana sahibi fransızca nəzakətsiz-filansız eləcə dedi. Bu ailənin artıq bu mehmanxananın qazancına bir qəpiklik xeyri dəyməyəcəkdi. – Bu mümkün deyil, madam, - o dedi və fikrini daha aydın izah etmək üçün əlavə etdi ki, onun istəyini yerinə yetirəcəyi halda, bütün Kapridə hamı bundan xəbər tutar və turistlər mehmanxananı tərk edərlər.

Xanım bu sözləri dinləyib, stulda əyləşdi, örpəyi ağzına sıxıb hönkür-hönkür ağladı. Birdən göz yaşları qurudu. Özünü ələ aldı. Səsini qaldırıb, fransızca tələb etdi, hələ də onların ailəsinə əvvəlki hörmətin qalmadığına inana bilmirdi. Mehmanxana sahibi xanımın tələbinə fikir verməyib dedi ki, meyid elə günü bu gün buradan çıxarılmalıdır, polislərə bu barədə məlumat verilib, sadəcə bəzi sənəd məsələlərini həll etmək lazımdır... Madam sual verdi ki, heç olmasa Kapridə bir hazır tabut tapmaq olarmı? Təəssüf ki, yox və heç kim də bu tabutu hazırlamağa vaxt tapmayacaqdı... Mehmanxana sahibi dedi ki, bura uzun yeşiklərdə qazlı su gətirirlər, həmən bu yeşikdən necəsə istifadə etmək olar...

Gecə hamı mışıl-mışıl yatırdı. Qırx üçüncü nömrənin pəncərəsini açdılar, işığı söndürdülər, qapını açarla bağladılar və getdilər. Pəncərə şüşəsindən zərif banan ağacı görünürdü...

Meyid qaranlıqda tək-tənha qaldı. Göy ulduzlar səmadan bu meyidə tamaşa edirdilər. Qurbağalar kədərli səslə quruldayırdılar... Tutqun dəhlizdə, pəncərə önündə əyləşmiş iki qulluqçu nəsə toxuyurdu. Xidmətçi Luidci əlində bir yığın donla otağa daxil oldu.

- Pronto? (Hazırdı?) – o, dəhlizin sonundakı dəhşətli qapıya işarə edərək iztirabla soruşdu. Və boş əlini həmən istiqamətə göstərərək yırğaladı. - Partenza! (Göndərilməl) – sanki qatarı yola salırmış kimi pıçıltıyla qışqırdı. Xidmətçilər isə səssiz gülüşlərində boğularaq özlərindən getdilər.

Sonra xidmətçi hoppana-hoppana qırx üç nömrəli otağa yaxınlaşdı, qapını azacıq taqqıldatdı və başını içəri salıb, ehtiramla soruşdu:

- Ha sonato, signore?

Sonra isə özü-özüylə danışırmış kimi kədərli-kədərli dedi:

- Yes, come in...

Səhər tezdən qırx üç nömrəli otağa içində qazlı sular olan uzun yeşik gətirdilər. Yeşik getdikcə ağırlaşırdı. Mehmanxana xidmətçisinin dizləri təzyiqdən ağrıyırdı. Arabaçı yeşiyi ağ yolla aparırdı, Kapri adasının dolanbac yollarıyla. Üzüm bağlarının arasıyla, daş hasarlardan keçərək, düz dənizə kimi apardı. Arabaçı susurdu. Buraxdığı nöqsanlara görə xəcalət çəkirdi. Dünən gecə bütün pulunu qumarda uduzmuşdu. Ancaq təskinliyi də vardı. Dünən gecə, arabanın arxasında başı yırğalanan meyid, hansısa San-Fransiskolu cənab ona gözlənilmədən xidməti müqabilində pul vermişdi...

Anlaşılmaz parlaq göyümtüllükdə üzən buxar gəmisi son fitlərini çalırdı. Xanım və qızı avtomobillə birtəhər özlərini limana yetirdilər. Solğun rəngləri vardı xanımla qızının. Axıtdıqları göz yaşları və yuxusuz gecə üzlərinə hopmuşdu. On dəqiqədən sonra gəmi yenidən fit çaldı və Kapri adasından həmişəlik apardı San-Fransiskolu cənabın ailəsini... Bununla da adada sakitlik və dinclik bərqərar edildi...

San-Fransiskolu qoca kişinin meyidi evə, qəbirə, Köhnə Dünyanın sahillərinə qayıdırdı. Çoxlu alçaltmalara məruz qalmış, çoxlu insanların diqqətsizliyi ilə üzləşmiş, bir həftə ərzində bir limandan başqa bir limana səyahət edən San-Fransiskolu cənab onu hörmət-izzətlə Köhnə Dünyaya aparan yenə bu məşhur buxar gəmisindəydi. Amma indi bu cənabı canlı insanlardan gizlədirdilər. Tabutun içində uzanmış cənab qaranlıq bir anbardaydı. Və bu gəmi yenə uzun bir səyahətə çıxırdı...

Okean qəru dağların divarlarında uğultuyla gəzişir, çovğun gəmidəki ağır alətlərin vasitəsiylə fit çalır, gəmi tufana da, çovğuna da sinə gərərək titrəyir, aşıb-daşan dağ çaylarını kotan kimi yarırdı. Dumanla boğulan sirena ölümcül səslə zarıldayır, qarovul durmuş növbətçilər şaxtadan donur, ağır gərginlikdən gəminin qüllәsində ağıllarını itirirdilər. Cəhənnəmin qızmar və tutqun dərinliklərinə, sonuncu - doqquzuncu qatına bənzəyən gəminin bətnində atəşiylə kömür yığınını yeyən qızdırıcı ocaqlar qalanır, çırtıltıyla közərən bu ocaqların kəskin tüstüsü, qurşağa qədər çılpaq fəhlələrin istidən qızarmış tərli bədənlərinə hopurdu. Bardakı varlı kişilər isə ayaqlarını qayğısız-qayğısız kreslоların stul dəstəyinə aşırıb, konyak və likör süzür, ətirli tüstünün dalğalarında üzürdülər. Rəqs zalında sevinc və şadlıq parlayırdı. Sevgili cütlüklər gah vals səsləri altında fırlanır, gah da tanqo səsləri altında bir-birlərinin addımlarını yamsılayırdılar. Bu sevgililərin arasında bir cütlük də vardı ki, öz xoşbəxtliyini heç kimdən gizlətmirdi. O kişi yalnız sevgilisiylə rəqs edirdi. Onlarda hər şey elə füsunkar, elə ecazkar alınırdı ki, bu cütlüyün Lloyd tərəfindən verilən babat pulların müqabilində sevgi oyunu oynadıqlarını yalnız gəmi komandiri bilirdi. Heç kim də bilmirdi ki, bu sevgili cütlük xoşbəxt iztirablarıyla həyasız-kədərli musiqinin səsləri altında yalandan əzab çəkməkdən bezıblər. Ayaqlarının altındakı dərinliklərdə, zülmət qaranlıqlı anbar qonşuluğundakı kədərə, okeana, çovğuna qalıb gəlirdi...

Ruscadan tərcümə:
Ramil Rahiboğlu

EUROMONITOR INTERNATIONAL

TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏR

"EUROMONITOR INTERNATIONAL" ŞİRKƏTİNİN HESABATINDA 2017 - Cİ İLDƏ TURİSTLƏR ÜÇÜN ƏN CƏLBEDİCİ ŞƏHƏRLƏRİN ADLARI AÇIQLANIB

Siyahıya Honkonq başçılıq edir. 2017-ci ildə şəhərə 25,7 milyon turist gəlib.

İkinci yerdə Banqkok (23,3 milyon), 3-cü yerdə isə London qərarlaşıb (19,8 milyon).

İlk onluğa həmçinin Sinqapur, Makao, Dubay, Nyu-York, Şençjen və Kuala-Lumpur daxil edilib.

DUBAY
















DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.

MEKSİKA MİLLİ MUXTAR UNİVERSİTETİNİN KİTABXANASI

Əsası 1910-cu ildə qoyulmuş universitetin kitabxana ilə birlikdə baş kampusu 2007-ci ildə UNESKO-nun Ümumdünya İrs siyahısına daxil edilmişdir. Meksikanın ən görkəmli memarları tərəfindən inşa edilən bu kampusu şöhrətləndirən həm də onun tərtibatında məşhur rəssamların - Хосе Клементе Ороско, Диего Ривера və Давид Альфаро Сикейросun iştirak etməsidir.

Universitetə 1920-ci ildə verilmiş muxtariyyət hökumətin müdaxiləsi olmadan tədris proqramını müstəqil tərtib etmək və büdcəni sərbəst idarə etmək imkanı verir ki, bu, kitabxananın da davamlı inkişafına təsir göstərir.



www.dunyaschool.edu.az

XƏZƏR UNİVERSİTETİ
DÜNYA MƏKTƏBİ

BEYNƏLXALQ
BAKALAVR
TƏŞKİLATI

XƏZƏR UNİVERSİTETİ DÜNYA MƏKTƏBİNDƏ 2018-2019-CU TƏDRİS İLİ ÜÇÜN ŞAGİRD QƏBULU ELANI



Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Qəbul imtahanında ən yüksək nəticə göstərən şagirdlər təqaüd imkanı qazanırlar.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur.İngilis dilinin tədrisi beynəlxalq standartlara uyğun təşkil olunmuşdur.

Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Məktəbdə təcrübəli yerli pedaqoqlar və xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Məktəbdə bilik və tərbiyə ilə yanaşı, sosial fəaliyyətlərə də böyük əhəmiyyət verilir.

AZƏRBAYCAN BÖLMƏSİ
I-XI
RUS BÖLMƏSİ
I-XI
İNGİLİS BÖLMƏSİ
I-XI
SİNİFLƏRƏ

Dünya məktəbində Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Organization – IBO) ibtidai, orta məktəb və Diplom proqramları fəaliyyət göstərir.

X sinif şagirdləri tam orta təhsillə yanaşı, Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər. Diplom proqramında təlim ingilis dilindədir, təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

BAĞÇA VƏ MƏKTƏBƏQƏDƏR HAZIRLIĞA ŞAGİRD (4-5, 5-6 yaş) QƏBULU DAVAM EDİR.



Keyfiyyətli təhsil, sağlam yaradıcı mühit şagirdləri öyrənməyə həvəsləndirir. Gündəlik dərs proqramından əlavə şahmat, kompüter, psixologiya, rəsm,texnologiya, musiqi, rəqs, dram və üzgüçülük dərsləri keçirilir, ən önəmli bacarıq və vərdişlər formalaşır. Təhsil azərbaycan, rus və ingilis dillərində aparılır.

SİZİ GÖZLƏYİRİK.
DÜNYA MƏKTƏBİ SİZİN ARZULARINIZI GERÇƏKLƏŞDİRƏN BİR MƏKTƏB. BİZİ SEÇSƏNİZ, İNANIRIQ Kİ, SƏHV ETMƏZSİNİZ. DÜNYANI DÜNYA MƏKTƏBİNDƏ KƏŞF EDƏCƏKSİNİZ.

Bakı, Əcəmi Naxçıvani 9
Tel: (+99412) 563 59 40/47/48
Mob: (+99470) 844 08 88

E-mail: info@dunyaschool.az
URL: www.dunyaschool.edu.az

Sumqayıt, Bakı küçəsi 37
Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
Xəzər Universitetini seçl

BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

5 QRUP

- Dizayn